EVDƏ QAL, SAĞLAM QAL!

**Azərbaycan vətəndaşları Prezident İlham Əliyevə minnətdarlıq edirlər**



Bax 3

**Birinci vitse-prezident Mehriban Əliyeva Türkiyəyə minnətdarlığını bildirib**



Bax 4



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 062 (6027) 16 aprel 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


# İlham Əliyev: "Münxen Təhlükəsizlik Konfransının yekunları Ermənistan təbliğatını darmadağın edib"



Bax 2

Bax 6



## Həmrəylik və qardaşlıq nümunəsi

Dünya koronavirusla mübarizəni davam etdirir. Bu, heç də asan deyil. Bəzi ölkələrdə koronavirusun yayılması azalır, bəzilərində isə əksinə artır. Təəssüf ki, bu mübarizədə bəzi qüsurlar da ortaya çıxdı, tibbi ləvazimatlar oğurlandı, qarşılıqlı ittihamlar çoxaldı və sair.

## "Bütün sahələrdə əldə olunan uğurlar aparılan siyasətin nəticəsidir"



"Bildiyimiz kimi, aprelin 14-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində müşavirə keçirildi. Müşavirə zamanı bir daha məlum oldu ki, ölkəmiz 2019-cu ili böyük uğurla başa vurub və 2020-ci ilin əvvəlindən başlayaraq bütün sahələrdə inkişaf yüksək səviyyədə həyata keçirilib". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin sədr müavini Adil Əliyev deyib.

Bax 4

## Qlobal böhran fonunda Azərbaycanda xəyanətkar müxalifətin iç üzü



*İstənilən siyasi hərəkat, ideoloji bir cərəyan nəticə etibarı ilə millətin və dövlətin rifahını, gələcəyin modelləşdirilərək cəmiyyətə ən optimal formada təqdim olunmasını hədəflədiyi zaman həyat qabiliyyəti olur, geniş içtimai rəğbəti qazanır.*

Bax 5

## Diqqət: Urək-damar xəstələri necə qidalanmalı?



*Ürək-damar xəstəliklərinin inkişafına meyvə-tərəvəzlərin az, duz və doymuş turşuların isə həddindən artıq istehlakı, gündəlik qəbul edilən qidaların tərkibində lifin azlığı və ya olmaması, qeyri-adekvat və balanslaşdırılmamış qidalanma kimi amillər təsir edir.*

Bax 16

## Koronavirus necə ortaya çıxdı? ABŞ generalından ŞOK açıqlama



ABŞ Ordusunun Baş Qərargah rəisi general Mark Milley yeni növ koronavirusun (Covid-19) laboratoriya şəraitində yaradıldığı ilə bağlı iddialara şərik olduğunu bildirib.

Bax 11

**"Prezident İlham Əliyev keçirdiyi müşavirədə Azərbaycanın uğur tandemini hədəflədiyini və bu hədəfləri əldə etdiyini vurğulayıb"**



Bax 7

**"Narıncı" xatırlatma...**



Bax 13

**"Cəbhəbaşı" Kərimlinin "karantin çağırışı" yoxsa - tüpürdüyünü yalamaq?**



Bax 14

# İlham Əliyev: “Münxen Təhlükəsizlik Konfransının yekunları Ermənistan təbliğatını darmadağın edib”

“Münxen Təhlükəsizlik Konfransı dünya miqyasında təhlükəsizliklə bağlı bir nömrəli konfransdır. Bu dəfə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı imkan oldu ki, canlı efirdə həm tarixi həqiqətlər, həm münaqişə ilə bağlı həqiqətlər geniş auditoriyaya çatdırılsın. Çünki bu auditoriya milyonlarla insanı əhatə edir. Nəzərə alsaq ki, tarixdə ilk dəfə olaraq Azərbaycan və Ermənistan rəhbərləri canlı efirdə debatda idilər. Bu debatlara çox böyük maraq var idi. Bu, bir daha göstərdi ki, erməni təbliğatı saxtakarlıq, yalan, mifologiya üzərində qurulub.”



AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində keçirilmiş müşavirədə söyləyib.

“Bizim sözümüz isə tarixə, tarixi sənədlərə, tarixi reallıqlara və beynəlxalq hüquqa əsaslanır. Ona görə Münxen Təhlükəsizlik Konfransının yekunları Ermənistan təbliğatını darmadağın edib və bunların uzun illər ərzində uydurduğu yalan məlumatlara son qoyub. Əlbəttə, istisna edilmir ki, bu cəhdlər bundan sonra da göstəriləcək, ancaq artıq buna heç kim inanmayacaq”, - deyə dövlətimizin başçısı bildirib.

### “Avropa Şurası Azərbaycanı nüfuzdan salmaq üçün əlindən gələni əsirgəmir”

Dövlət başçısı müşavirədə bildirib ki, Ermənistan təbliğatına və ümumiyyətlə, Ermənistanın münaqişə ilə bağlı mövqeyinə növbəti böyük zərbə bu yaxınlarda vuruldu: “Bu zərbəni, əslində, onlar özləri özlərinə vurdular. Əlbəttə ki, bizim məqsədyönlü fəaliyyətimiz, beynəlxalq təşkilatlarla yaranmış əlaqələr bu zərbəni daha da gücləndirdi. Söhbət qondarma “Dağlıq Qarabağ respublikası”nda keçirilmiş qondarma “prezident”in qondarma “seçkiləri”ndən gedir. Bu “seçkilər” bir daha göstərdi ki, bu qanunsuz xunta rejimini heç kim tanımır. “Seçkilər”dən sonra bütün aparıcı beynəlxalq təşkilatlar bu seçkiləri tanımadı və açıq-aydın bəyanatlar səsləndi.”

Dövlətimizin başçısı qeyd edib ki, ATƏT-in Minsk qrupunun həmsədrləri - Amerika, Fransa, Rusiya açıqlama verdi. ATƏT Parlament Assambleyası açıqlama verdi. Avropa İttifaqı, hətta bizə qərəzli mövqedə dayanan Avropa Parlamenti də açıqlama verdi. NATO, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, Türk Şurası - bütün bu təşkilatlar dünyanın demək olar ki, mütləq əksəriyyətini cəmləşdirir. Qoşulmama Hərəkatında 120 ölkə, İslam Əməkdaşlıq Təşkilatında 50-dən çox ölkə, Avropa İttifaqında 30-a yaxın ölkə, ATƏT-də 50-yə yaxın ölkə. Bütün bu təşkilatlar bu “seçkiləri” tanımadı və bir daha göstərdilər ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Bu, bir daha göstərdi və mən bunu demişəm, bir daha demək istəyirəm ki, Dağlıq Qarabağ Azərbaycandır və nida işarəsi.

“Ancaq istəyirəm Azərbaycan vətəndaşları bilsinlər ki, bu beynəlxalq təşkilatlar arasında bir təşkilatın adı yoxdur. Hesab edirəm, hər kəs başa düşür ki, söhbət Avropa Şurasından, Avropa Şurası Parlament Assambleyasından gedir, hansı ki, uzun illər, 20 il ərzində Azərbaycanı qaralamaq, Azərbaycana şər, böhtan atmaq, Azərbaycanı nüfuzdan salmaq üçün əlindən gələni əsirgəmir”, - deyə Azərbaycan Prezidenti qeyd edib.

Avropa Şurası Parlament Assambleyasının bu məsələdə susduğunu vurğulayan dövlətimizin başçısı bildirib: “Baxın, bütün təşkilatlar, o cümlədən Avropa təşkilatları bəyan edirlər ki, biz bu seçkiləri tanımırıq. Bunun birmənalı mənası odur ki, Dağlıq Qarabağ Azərbaycandır. Avropa Şurası Parlament Assambleyası niyə susur? Niyə bunu demir? Sualın cavabı aydındır. Ona görə ki, orada cəmləşən anti-Azərbaycan qüvvələr, ermənipərəst qüvvələr Azərbaycana düşmən gözü ilə baxırlar. Bizə qarşı o təşkilatdan gələn bütün iradların heç bir əhəmiyyəti yoxdur. Mən demişəm, bir daha demək istəyirəm ki, onların qəbul etdikləri qətnamələr, qərarlar mənim üçün kağız parçasından artıq deyil. O təşkilatın Azərbaycanla bağlı olan fikri məni maraqlandırmır və heç vaxt maraqlandırmayıb”.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev İsa Hüseyn oğlu İsayev 2-ci dərəcəli “Əmək” ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, Azərbaycanda səhiyyənin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə İsa Hüseyn oğlu İsayev 2-ci dərəcəli “Əmək” ordeni ilə təltif edilib.

* * *

Prezident İlham Əliyev koronavirus pandemiyası şəraitində və sonrakı dövrdə kənd təsərrüfatı məhsulları istehsalçılarının mikrokreditlərlə təminatının yaxşılaşdırılması üçün vəsait ayrılması haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev “Xüsusi karantin rejimi dövründə sosial xidmətlər göstərilməsində iştirak edən işçilərin sosial müdafiəsinin gücləndirilməsi haqqında” Sərəncam imzalayıb.

# Prezident İlham Əliyev Gürcüstan Prezidenti ilə videobağlantı formatında danışıb



Aprelin 15-də Gürcüstan tərəfinin təşəbbüsü ilə Gürcüstan Prezidenti Salome Zurabişvili ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev videobağlantı formatında danışıblar.

**Prezident Salome Zurabişvili:**

-Cənab Prezident, mən Sizinlə belə çətin bir zamanda deyil, daha yaxşı vaxtlarda söhbət etmək istərdim. Ümidvaram ki, şəxsən Siz, ailəniz, əməkdaşlarınız - hamınız yaxşısınız. Ümid edirəm ki, biz bu çətin şəraitdə əməkdaşlığımızı mümkün olan qədər tez bir zamanda davam etdirəcəyik.

**Prezident İlham Əliyev:**

-Təşəkkür edirəm, xanım Prezident. Sizi görməyə çox şadam. Əlbəttə ki, bu cür ünsiyyət qurmaq çox qeyri-adidir. Lakin bu, zamanın özəlliyidir. İndi bizə bir-birimizi görməyə və bir-birimizlə söhbət etməyə imkan verən yeni texnologiyaların olması çox yaxşı bir haldır. Əməkdaşlığınıza görə Sizə təşəkkür edirəm. Mən ölkəmizə Sizin çox uğurlu rəsmi səfərinizi xatırlayıram.

Gürcüstan Prezidenti dünən Gürcüstana göstərilən həmrəyliyin ifadəsinə görə minnətdarlığını bildirdi. Prezident İlham Əliyev hər zaman olduğu kimi koronavirus pandemiyası şəraitində də ölkələrimiz və xalqlarımızın bir-birinin yanında olaraq həmrəylik nümayiş etdirməsinin önəmini bildirdi. Dövlət başçıları koronavirus pandemiyası ilə mübarizə sahəsində həyata keçirilən tədbirlər və bu istiqamətdə görüləcək işlər ətrafında fikir mübadiləsi apardılar.

Söhbət zamanı Azərbaycanla Gürcüstanın beynəlxalq tranzit dəhlizinin önəmli iştirakçıları olduğu bildirilərək, ticarət əlaqələrinin, tranzit-nəqliyyat sahəsində işlərin davam etdirilməsinin vacibliyi vurğulandı. Dövlət başçıları iqtisadiyyat, ticarət, nəqliyyat sahələrində gələcək əməkdaşlığın perspektivlərini də müzakirə etdilər.

# Azərbaycan vətəndaşları Prezident İlham Əliyevə minnətdarlıq edirlər



***Ölkəmizdə koronavirus pandemiyasının geniş yayılmasının qarşısının alınması, əhalinin sağlamlığının qorunması ilə bağlı gördüyü işlərə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə vətəndaşlardan minnətdarlıq məktubları gəlməkdə davam edir.***

AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların bir neçəsini təqdim edir.

Ağcabədi rayonunun sakini Natiq Əlişov yazır: "Möhtərəm cənab Prezident, dünyanı bürümüş yeni koronovirus pandemiyasının respublikamızda yayılmasının qarşısının alınması istiqamətində gördüyünüz bütün tədbirlər bir daha sübut etdi ki, hər zaman olduğu kimi Azərbaycan Prezidenti öz xalqının yanındadır. Əminik ki, bu birlik bizə belə ağır sınaqdan qələbə ilə çıxmağa imkan verəcək. Rəhbərliyinizlə vaxtında görülmüş operativ və təxirəsalınmaz tədbirlər nəticəsində hazırda respublikamızda koronovirus pandemiyasına qarşı səmərəli mübarizə aparılır. Koronavirusa qarşı mübarizə tədbirləri ilə bağlı imzaladığınız sərəncamlar, açılan yeni xəstəxanalar, yeni müəssisələr göstərir ki, Azərbaycan bu çətin sınaqdan alnıaçıq çıxacaq. Dövlətimiz bu gün də öz vətəndaşının sağlamlığını qorumaq və pandemiyanın yayılmasının qarşısını almaq üçün səylərini davam etdirir. Xalqımızın bu bəladan minimum zərərlə xilas olacağına əminliklə inanırıq. Xalqımıza göstərdiyiniz dəstəyə və qayğıya görə Sizə və Mehriban xanıma bütün qarabağlılar adından təşəkkürümü bildirir, Sizə və ailənizə uzun ömür, cansağlığı arzu edirəm. Uca Allah Sizi və Azərbaycan xalqını qorusun".

Beyləqan rayonunun sakini, 2-ci qrup Qarabağ müharibəsi əlili, ehtiyatda olan leytenant İlham Əliyev yazır: Möhtərəm Prezident, cənab Ali Baş Komandan, Sizin ölkəmizi COVID-19 virusundan qorumaq üçün atdığınız hər addımınızı alqışlayırıq. Siz bizi bizdən də çox düşünürsünüz. Ona görə də Sizə ailəmiz adından təşəkkür edirəm. Bu çətin günlərdə də xalqımıza arxa-dayaq oldunuz, təhlükəsizliyimiz üçün əlinizdən gələni əsirgəmədiniz. Biz Sizinlə fəxr edirik. Yaxşı ki, dövlətimizin başındasınız. Ulu Tanrı Sizi və ailənizi qorusun!".

Tərtər rayonunun Səhləbad kəndinin sakini Zahid İbrahimov dövlətimizin başçısının hər zaman xalqımıza diqqət və qayğı ilə yanaşdığını vurğulayaraq yazır: "Hörmətli cənab Prezident, Siz Prezident seçildiyiniz gündən həmişə xalqın yanında olmusunuz, əhalinin qayğıları ilə yaşamışınız. "El gözü tərəzidir", - deyiblər atalar. Əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması üçün hazırlanan sosial paketlərdə bütün təbəqədən olan insanların - işsizlərdən tutmuş sahibkarlara qədər hər kəsin dövlətdən ayrılan payı var. Bunun üçün də Sizə minnətdarıq. Siz Azərbaycan kimi böyük bir ailəyə başçılıq edir, bu ailənin heç bir üzvünü unutmursunuz. Bütün dünyanın COVID-19 pandemiyası ilə üz-üzə qaldığı bir vaxtda yenə də xalqımızın dolanışığını unutmadınız, dövlət öz yardım əlini xalqdan əsirgəmədi, maddi köməklə bərabər bizə mənəvi cəhətdən də dəstək oldu, "evdə qal, sağlam qal" dedi. Gələcəyimiz naminə hər kəs bu çağırışa qoşulub karantin rejiminə ciddi əməl etməlidir ki, çətin günləri arxada qoyaq, yenidən doğma Vətənimizin inkişafı naminə, möhtərəm Prezidentimiz, Sizə - qəlbi daim xalqı ilə döyünən rəhbərə dəstək olaq. Mən fəxr edirəm, qürur hissi keçirirəm ki, Sizin kimi Prezidentimiz var. Tanrı Sizi qorusun!".

Tərtər rayonunun Bəyimsarov kəndinin sakini, 1-ci dərəcəli "Əmək" ordenli fermer Fazil Vəliyev yazır: "Möhtərəm cənab Prezident, bu çətin günlərdə - ölüm kabusunun insanların aldığı hər nəfəsdə dolaşarkən xalqla birlikdə olduğunuza, COVID-19 pandemiyasının ölkəmizdə qarşısının alınması üçün qabaqlayıcı tədbirlər gördüyünüzə görə Sizə minnətdarıq. İnanırıq ki, dünya tezliklə bu bəladan xilas olacaq, həyatımız əvvəlki axarına düşəcək.

Çox hörmətli Prezidentimiz, biz fermerlər Sizin yürütdüyünüz siyasəti dəstəkləyirik, ətrafınızda sıx birləşmişik. Çünki Siz dediyiniz kimi, "Biz birlikdə güclüyük!". Tanrı Sizi qorusun!".

Bakı şəhəri Yasamal rayonunun sakini Veysəl Vəliyev ölkəmizdə koronavirusun geniş yayılmaması istiqamətində görülən işlərin əhəmiyyətini vurğulayaraq yazır: "Çox hörmətli, qayğıkeş Prezidentimiz, hazırda dünya dəhşətli bir bəla ilə üzüzədir. Azərbaycan bu qlobal problemdən az itki ilə çıxmaq üçün ciddi addımlar atır. Bütün bunlar Sizin həyata keçirdiyiniz səmərəli tədbirlərin nəticəsidir.

Mən O.Kutafin adına Moskva Dövlət Hüquq Universitetində magistr təhsili alıram və Sizin göstərişinizlə martın 27-də xüsusi reyslə Rusiyadan ölkəmizə gətirilən tələbələrdən biriyəm. Bizi Heydər Əliyev Beynəlxalq Aeroportundan birbaşa Atletlər kəndinə apardılar. Əvvəlcədən burada hər cür şərait yaradılmışdı. Ölkəmizin malik olduğu bu imkanlar məni qürurlandırdı. Çünki böyük dövlətlərin koronavirusa qarşı mübarizədə necə aciz qaldıqlarını hamı görür. Ancaq xaricdən gələn tələbələrimizə burada göstərilən diqqət və qayğı mükəmməl idi. Səliqə-sahman, vaxtında düzgün qidalanma, müayinə, həkimlərin xüsusi diqqəti məni çox sevindirdi. Karantində 14 gün qaldıqdan sonra evimizə göndərildik. Artıq ailəmə qovuşmuşam.

Cənab Prezident, karantin müddətində mənə göstərilən diqqət və qayğıya görə həm öz adımdan, həm də valideynlərimin adından Sizə dərin minnətdarlığımı bildirirəm. Nə yaxşı ki, Azərbaycanımızın Sizin kimi lideri var. Siz hər zaman Azərbaycanı böyük bəlalardan qoruyursunuz. Ona görə də mən bir Azərbaycan gənci olaraq Sizinlə fəxr edirəm. Bir hüquqşünas kimi söz verirəm ki, yürütdüyünüz müstəqil siyasətinizin hər zaman dəstəkçisi olacağam. Tanrı Sizi qorusun!".

Tərtər rayonunun İsmayılbəyli kəndinin sakini Eldar Əsədov yazır: "Əziz Prezidentimiz, biz tərtərlilər həmişə Sizi dəstəkləyirik. Çünki Siz ən ağır günlərdə bizimlə olub, xalqa həmişə dəstək göstərmisiniz. COVID-19-un dünyanı ağuşuna aldığı bir vaxtda Siz yenə də bizimləsiniz. İnsanların sağlamlığını qorumaq üçün ölkəmizdə xüsusi karantin rejimi tətbiq olunub. Biz yaxşı başa düşürük ki, sağlam qalmaq üçün özümüzü müvəqqəti olaraq təcrid etməliyik. Evdə qalmalıyıq ki, normal həyatımıza sağlam dönək.

Bu çətin dönəmdə əhalinin müxtəlif təbəqələrindən olan insanlara göstərdiyiniz dəstəyə görə Sizə minnətdarıq. Fəxr edirik ki, Sizin kimi Prezidentimiz var".

Ucar rayonunun sakini Niyaz Xəlilov qabaqlayıcı tədbirlər nəticəsində xalqımızın bu bəladan xilas olacağına əminliyini bildirərək yazır: "Möhtərəm cənab Prezident, dünyanı cənginə almış pandemiya ilə mübarizədə tibbin ən inkişaf etdiyi ölkələrin aciz qaldığı, bəzi dövlətlərin bu virusa biganə yanaşdığından çətin vəziyyətə düşdüyü halda, Sizin uzaqgörən siyasətiniz nəticəsində Azərbaycanımızda bütün qabaqlayıcı tədbirlər görüldü. Siz Azərbaycan vətəndaşlarının sağlamlığının qorunması istiqamətində qətiyyətli addımlar atır, qərarlar qəbul edirsiniz. İnanırıq ki, bəşəriyyət, xalqımız tezliklə bu bəladan xilas olacaq.

Cənab Prezident, Azərbaycan vətəndaşı olmağımızla, Sizin kimi Prezidentimizlə qürur duyuruq. Allah Sizi qorusun!".

Daşkəsən rayon sakinləri Abbas Tağıyev, Saleh Qurbanov, Oktay Cəfərov və İdris Bağırov da koronavirusun ölkəmizdə yayılmasının qarşısının alınması istiqamətində görülən işlərin təqdirəlayiq olduğunu qeyd edirlər. Onlar yazırlar: "Hörmətli cənab Prezident, koronavirus pandemiyasının ölkəmizdə yayılmasının qarşısının alınması istiqamətində Sizin rəhbərliyinizlə görülən işlər təqdirəlayiqdir. Qəbul edilən qərarlara uyğun olaraq rayonumuzda da xüsusi karantin rejiminin tələblərinə, habelə sanitar-epidemioloji normalara şərtsiz əməl olunması üçün zəruri tədbirlərin görülməsi davam etdirilir. Küçə və prospektlərdə, ayrı-ayrı ərazilərdə, yaşayış binalarında və inzibati binalarda dezinfeksiya işləri aparılır. Aztəminatlı ailələrə maddi yardım göstərilir, əhalinin sağlamlığının qorunması üçün mühüm tədbirlər görülür.

Cənab Prezident, qabaqlayıcı tədbirlərin vaxtında keçirilməsi üçün verdiyiniz qətiyyətli tapşırıqlar öz səmərəsini verir. Azərbaycan bu bəladan da üzüağ çıxacaq.

Rayonumuzun bütün sakinləri adından görülən işlərə görə minnətdarlığımızı bildirərək gələcək fəaliyyətinizdə uğurlar arzulayırıq".

Laçın rayonunun Köhnəkənd kənd sakini, hazırda Abşeron rayonunda yaşayan Yavər Səlimov Köhnəkənd kəndinin sakinləri adından dövlətimizin başçısına minnətdarlıq edərək yazır: "Hörmətli Prezident, cənab Ali Baş Komandan, bütün ölkələri lərzəyə salan koronovirus pandemiyasının qarşısının alınması istiqamətində verdiyiniz göstərişlər nəticəsində ölkəmizdə bu virusa qarşı mübarizə çox yüksək səviyyədə təşkil olunmuş, qısa zaman kəsiyində Nazirlər Kabineti yanında Operativ Qərargah yaradılmış, hər şeyə rəğmən əhalinin sağlamlığının qorunması ön plana çəkilmişdir. Həmişə olduğu kimi, bu dəfə də Sizin uzaqgörənliyiniz sayəsində təxirəsalınmaz tədbirlər həyata keçirilmiş, bu pandemiyadan daha az itki ilə çıxmaq üçün əməli işlər görülmüşdür. Məhz bunun nəticəsi olaraq ölkəmiz ölüm və koronavirusa yoluxanların sayına görə dünya dövlətləri arasında sonuncu yerləri bölüşür.

Möhtərəm Prezident, işləməyən, yaşı 65-dən yuxarı, tənha və aztəminatlı ailələrə göstərdiyiniz diqqət və qayğıya görə Sizə dərin təşəkkürümüzü və minnətdarlığımızı bildiririk. Apardığınız həm xarici, həm daxili, həm də sosial-iqtisadi siyasət əməksevər və qədirbilən xalqımız tərəfindən həmişə yüksək qiymətləndirilmiş və bundan sonra da qiymətləndiriləcək".

Gəncə şəhər sakinləri Rəşad Əliyev, Nurlana Bəşirova, Akif Salmanov və Telman Quliyev görülən işlərin vətəndaşlarımız tərəfindən rəğbətlə qarşılandığını bildirərək yazırlar: "Çox hörmətli cənab Prezident, koronavirus pandemiyasının ölkəmizdə geniş yayılmasının qarşısının alınması istiqamətində atdığınız addımlar və verdiyiniz sərəncamlar vətəndaşlar tərəfindən böyük rəğbətlə və alqışla qarşılanır. Bu işlərə görə Sizə dərin minnətdarlığımızı bildiririk. Biz Sizə və dövlətimizə hər zaman güvənmişik. Pandemiya dövründə də belə oldu. Çox sağ olun ki, Sizə bəslənən ümidləri və güvəni hər zaman doğruldur, xalqımıza ruh yüksəkliyi bəxş edirsiniz. Ulu Tanrı hər zaman dayağınız olsun, cənab Prezident!".

Biləsuvar rayonunun sakini Məhərrəməli Kazımlı yazır: Hörmətli Prezidentimiz, Sizin uzun illərdir ölkəmizin səhiyyə sahəsində həyata keçirdiyiniz əsaslı islahatlar öz bəhrəsini verməkdədir. Yeni səhiyyə ocaqlarının istifadəyə verilməsi, ölkəmizdə yüksək səviyyəli tibbi heyətin formalaşmasına hesablanmış dövlət siyasəti imkan verəcək ki, koronavirus infeksiyasının daha az zərərlə aradan qaldırılmasına nail olaq. Bu çətin günlərdə modul tipli tibb müəssisələrinin yaradılması, tibbi maska istehsalı müəssisəsinin istifadəyə verilməsi Sizin çevik fəaliyyətinizin bariz nümunələridir. Biz - Biləsuvar veteranları Sizin bu fəaliyyətinizi alqışlayırıq. Cənab Prezident, qeyd etmək istəyirik ki, bütün bu tədbirlərin həyata keçirilməsində Sizinləyik. Biz birlikdə güclüyük!".

# Birinci vitse-prezident Mehriban Əliyeva Türkiyəyə minnətdarlığını bildirib



Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi İnstaqram səhifəsində Türkiyənin paytaxtı Ankarada yerləşən məşhur Atakule qülləsində Azərbaycan Respublikasının bayrağının işıqlandırılması ilə bağlı qardaş ölkəyə minnətdarlığını bildirib. SİA-nın məlumatına görə, minnətdarlıqla bağlı paylaşımda deyilir:

"Qardaş Türkiyəyə dərin minnətdarlığımı bildirirəm! Ölkələrimiz daim bir-birinin yanındadır - həm sevincli günlərdə, həm çətin sınaq günlərində. Bizim birliyimiz, bizim gücümüz bundadır! Xalqlarımıza möhkəm cansağlığı, ölkələrimizə sülh və əmin-amanlıq arzulayıram! Qoy Uca Tanrı dünyamızı qorusun!"

# Tacikistan portalında "Azərbaycan xalqının tarixində görkəmli qadınlar" adlı məqalə


Зарифа Алиева с коллегами

Востоковед, литературовед, критик, переводчик, доктор филологических наук, профессор Аида Имангулиева является первой женщиной-доктором наук по арабской литературе, профессором. В её многочисленных научных трудах (три монографии и более 70 научных статей) исследуется синтез традиций культуры Востока и Запада, развитие творческого стиля и возникновение новых литературных течений, а это, в свою очередь, создаёт почву для исследования в будущем не только арабской, но и восточной литературы в целом.

Tcell

МНЕНИЯ

3 ФЕВРАЛЯ 2020
Посол КНР: Китай обязательно справится с эпидемией пневмонии, вызванной новым типом коронавируса

13 ЯНВАРЯ 2020
Азербайджан превращается в главный транспортный узел в регионе

Tacikistanın avesta.tj portalında "Azərbaycan xalqının tarixində görkəmli qadınlar" sərlövhəli geniş məqalə dərc olunub. SİA xəbər verir ki, rus dilində yayılan məqalədə Azərbaycan xalqının tarixində iz qoyan qadınlardan söhbət açılır. Materialda qədim dövrlərdə Azərbaycan hökmdarlarının anaları, xanımları və qızlarının ağıllı məsləhətləri ilə idarəçilikdə yaxından iştirak etdikləri bildirilir. Ədəbiyyat və mədəniyyət sahələrində tanınmış Azərbaycan qadınları Məhsəti Gəncəvi, Xurşidbanu Natəvan, Həmidə Cavanşir, Nabat Aşurbəyli, Nigar Rəfibəyli, Mirvarid Dilbazi, Hökumə Billuri, Əzizə Cəfərzadə və digərləri haqqında məlumat verilir.

Yazıda tibb elmləri doktoru, akademik Zərifə Əliyeva, filologiya elmləri doktoru, professor Aida İmanquliyeva, professor Rəfiqə Əliyeva, Xalq artisti Nəsibə Zeynalova, Xalq artisti, bəstəkar Şəfiqə Axundova və digər tanınmış qadınlarımız haqqında söhbət açılır.

Məqalədə Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın fəaliyyəti haqqında ayrıca danışılır, onun ölkəmizdə humanizm və xeyirxahlıq simvolu olduğu diqqətə çatdırılır. Həmçinin Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə Azərbaycanda və dünyada həyata keçirilən layihələr barədə məlumat verilir.

# "Bütün sahələrdə əldə olunan uğurlar aparılan siyasətin nəticəsidir"



"Bildiyimiz kimi, aprelin 14-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində müşavirə keçirildi. Müşavirə zamanı bir daha məlum oldu ki, ölkəmiz 2019-cu ili böyük uğurla başa vurub və 2020-ci ilin əvvəlindən başlayaraq bütün sahələrdə inkişaf yüksək səviyyədə həyata keçirilib". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin sədr müavini Adil Əliyev deyib.

O bildirib ki, Prezidentin rəhbərliyi ilə başlanan həm iqtisadi, həm də sosial islahatlar gözlənilən nəticələri verib: "Həmin islahatların ardıcıl şəkildə aparıldığı vaxtda bir anda bütün dünyada tüğyan edən koronavirus (COVID-19) epidemiyası müəyyən çətinliklər yaradıb. Belə ki, hazırda bu epidemiyanın dünya iqtisadiyyatını iflic etməsinə baxmayaraq, xəstəliyin ölkəmizdə yarada biləcəyi fəsadlar cənab Prezidentin mütərəqqi göstərişləri nəticəsində minimuma endirilmişdir. Pandemiyaya qarşı mübarizədə Azərbaycan dünyanın bir çox ölkələrindən fərqli olaraq qabaqlayıcı tədbirlər görüb, düşünülmüş siyasət nəticəsində xəstəliyin yaradacağı fəsadların azalmasına nail olub. Digər tərəfdən inkişaf da artan xətlə davam etməkdədir.".

Milli Məclisin sədr müavini söyləyib ki, hazırda ölkəmizdə karantin məqsədilə istifadə edilən hotellərlə yanaşı, altı mobil xəstəxananın çox qısa zamanda tikilməsi ilə əlaqədar cənab Prezident tərəfindən göstəriş verilib və habelə xəstələrin müalicəsi üçün lazım ola biləcək bütün tibbi avadanlıqların dərhal gətirilməsi tapşırılıb: "Təbii ki, pandemiyanın Azərbaycanla həmsərhəd olan ölkələrdə, həmçinin ticarət tərəfdaşlarımız olan ölkələrdə geniş yayılması, nəticədə sərhədlərin bağlanması iqtisadiyyata mənfi təsirini göstərir. Lakin sevindirici haldır ki, bu gün dünyanın 150-dən çox ölkəsi yardım üçün Beynəlxalq Valyuta Fonduna və Dünya Bankına müraciət etsə də, ölkəmizin adı həmin siyahıda yoxdur. Yəni bu gün ölkəmiz ən azı dünyanın 150 ölkəsindən daha yaxşı vəziyyətdədir, dünya birliyinin mütləq əksəriyyətinin yardıma ehtiyac duyduğu bir vaxtda əlimizdə olan resurslar bu çətin vəziyyəti idarə etməyə imkan verir".

Hazırda ölkəmizdəki müsbət dinamikanın göz qabağında olduğunu deyən A. Əliyev vurğulayıb ki, bunun nəticəsidir ki, keçən il dövlət büdcəsinə proqnozda nəzərdə tutulduğundan əlavə 1 milyard manat, bu ilin üç ayında isə 310 milyon manat gəlir daxil olub: " Cənab Prezident cari ilin birinci rübünün sosial-iqtisadi yekunlarına nəzər salaraq müşavirədə bir daha bildirdi ki, son üç ayda ümumi daxili məhsulda 1,1 faiz artım, qeyri-neft sektorunda isə 3 faizdən bir qədər çox artım olub. Bütün dünyanın koronavirus pandemiyasına görə böhrana düçar olduğu vaxtda ölkəmizdə həm ÜDM-də, həmdə qeyri-neft sektorunda inkişafın qeydə alınması bir daha deməyə əsas verir ki, uğurla aparılan siyasət hər vəziyyətdə və hər cür şəraitdə öz bəhrəsini verəcək. Təqdirəlayiq məsələlərdən biri də budur ki, Azərbaycan Prezidenti yaranan vəziyyətlə əlaqədar büdcədə zəruri olmayan layihələrin dayandırılması və ixtisara salınması barədə göstəriş versə də, sosial sahədə heç bir proqramın ixtisar edilməyəcəyini bildirib. Bu müjdə bir daha onu deməyə əsas verir ki, ölkəmizdə aparılan siyasətin ana xəttini Azərbaycan Respublikasının vətəndaşı tutur, vətəndaşa yüksək qiymət verilir, görülən hər bir iş vətəndaşın sosial rifahının yaxşılaşdırılmasına yönəlib. Cənab Prezident müşavirə zamanı pandemiyaya qarşı mübarizə üçün 2,5 milyard manat vəsait ayrıldığını, habelə həmin vəsaitin artırılması ilə əlaqədar heç bir çətinliyin olmadığını bildirdi. Dövlət başçısı nəzərə çatdırdı ki, lazımi avadanlıqların və ləvazimatların alınması üçün Prezidentin Ehtiyat Fondundan ayrılan 97 milyon manat və gələcəkdə ayrılması nəzərdə tutulan 150 milyon manat 2,5 milyard manatın içində deyil. Bu gün ölkəmizdə sosial sahəyə göstərilən qayğının nəticəsidir ki, orta aylıq əməkhaqqı 28 faiz, orta pensiyanın məbləği 27 faiz artıb. Nəticədə hazırda orta aylıq əməkhaqqı 712, orta pensiya 295, yaşa görə pensiya isə 330 manata yaxındır. Hazırda ünvanlı sosial yardım alan insanların sayı 70 mindən çoxdur".

A.Əliyev onu da qeyd edib ki, bu gün bütün dünyanın gözəgörünməz düşmənə qarşı (COVID-19) mübarizə apardığı bir şəraitdə cənab Prezident məcburi köçkün və şəhid ailələrini də unutmadı, minimum 7 min köçkün ailəsinin və minimum 1500 şəhid ailəsinin yeni mənzillərlə təmin ediləcəyini bildirdi: "Bu qayğı Azərbaycan dövlətində bütün sahələrə göstərilən diqqətin nəticəsidir. Ölkə başçısının müşavirə zamanı struktur islahatlarına diqqət çəkməsi inkişafın yalnız siyasi-iqtisadi sahələri əhatə etmədiyini bir daha göstərdi. Ölkədə aparılan siyasi islahatların, kadr islahatlarının uğurlu nəticələri göz qabağındadır. Bu islahatlar Prezident Administrasiyasını, Nazirlər Kabinetini, Milli Məclisi əhatə edib. Hakimiyyətin bütün qollarında aparılan islahatlar bir məqsəd daşıyır: idarəetmə mexanizmi təkmilləşsin, gəncləşmə siyasəti geniş tətbiq olunsun, peşəkar kadrlar önəmli vəzifələrə gətirilsin, idarəetmədə inkişafa mane olan bütün hallar aradan qaldırılsın. Bu ilin fevral ayında Milli Məclisə keçirilən növbədənkənar seçkilər xalqımızın iradəsini ifadə edib, vətəndaşlarımız tərəfindən bəyənilərək dəstəklənib. Parlament seçkilərinin demokratik şəkildə keçirilməsi, habelə VI çağırış Milli Məclisdə müxalifət partiyalarının nümayəndələrinin yüksək vəzifələrdə təmsil olunması onu deməyə əsas verir ki, iqtidar-müxalifət dialoqu sağlam əsaslara söykənib".

Milli Məclisin sədr müavini əlavə edib ki, ölkə başçısının tapşırığına uyğun aparılan siyasi kursdan heç kəs kənarda qalmır: "Dialoqa qoşulmaq istəyən müxalifət nümayəndələri də demokratikləşmə ilə bağlı çağırışlara müsbət reaksiya veriblər. Bu siyasətin bir tək ana xətti vardır ki, ölkəmizin inkişafı təmin edilsin və vətəndaşların sosial rifahını yaxşılaşdırmaqla doğma vətənimizi, el-obamızı daha yaşanılası bir yer edək. O ki qaldı dialoqdan imtina edən kəsimə, onlar özlərini müxalifət adlandırsalar da məlumdur ki, o şəxslər aparılan siyasətə yox, dövlətə və dövlətçiliyə müxalif insanlardır. Öz "sahiblərindən" aldıqları siyasi sifarişləri bu xalqın əleyhinə düşünmədən yerinə yetirən şəxsləri xalq yaxşı tanıyır və cəmiyyət onları heç cür qəbul etmir. Təbii ki, ölkə başçısının da dediyi kimi, onlara siyasi konfiqurasiyada da yer yoxdur, bunu özləri də başa düşür və qəbul edirlər. Beləliklə, cənab Prezident tərəfindən keçirilən müşavirənin nəticəsində bir daha aydın oldu ki, aparılan uğurlu islahatlar bütün sahələrdə öz nəticəsini verir, bütün sahələrdə inkişaf müsbət dinamika ilə davam edir, iqtisadi vəziyyət nəzarət altında olmaqla yeni ehtiyatlar axtarılır, sosial islahatlar çox uğurlu şəkildə davam etdirilir. Aparılan uğurlu islahatlar ölkəmizin inkişafına, vətəndaşların rifah halının yaxşılaşdırılmasına hesablanıb".

**Nailə Məhərrəmova**

# Qlobal böhran fonunda Azərbaycanda xəyanətkar müxalifətin iç üzü

İstənilən siyasi hərəkat, ideoloji bir cərəyan nəticə etibarı ilə millətin və dövlətin rifahını, gələcəyin modelləşdirilərək cəmiyyətə ən optimal formada təqdim olunmasını hədəflədiyi zaman həyat qabiliyyəti olur, geniş içtimai rəğbəti qazanır. Bu baxımdan Möhtərəm Prezidentimiz cənab İham Əliyevin rəhbərliyi altında Azərbaycan hakimiyyətinin cəmiyyətin bütün inkişaf istiqamətləri üzrə düşünülmüş strateji proqrama malik olması ölkəmizi istənilən qlobal böhran qarşısında daha dayanıqlı edir. Çünki bu idarəçilik fəlsəfəsi xalqın geniş təbəqələrinin möhkəm inamına və hərətrəfli dəstəyinə arxalanır.

Bu günlərin reallığı prizmasından yanaşanda planetimizin sosial -iqtisadi mənzərəsi qətiyyən ürəkaçan deyil. Belə ki, OPEC ölkələrinin üzv olmayan dövlətlərlə danışıqlarında yaranan problemlər dünya neft bazarında qlobal böhran doğurmuş, bu strateji yanacağın qiyməti beynəlxalq birjalarda ən az iki dəfə dəyər itirmişdir. Belə vəziyyət isə neft ixrac edən ölkələrin tədiyyə balansında ciddi kəsrlər yaratmış, iri həcmli investisiyalar təxirə salınmış, bu isə öz növbəsində makroiqtisadi tələbə mənfi təsir göstərərək ciddi işsizlik təhlükəsi meydana çıxmışdır. Bu azmış kimi, ötən ilin sonlarında Çində başlayan koronavirus, başqa adı ilə COVİD-19 virusu sürətlə pandemiya şəklin alaraq geniş coğrafiyada yayılmış və bəşəriyyəti humanitar fəlakət qarşısında qoymuşdur. 2 milyona yaxın insanın yoluxduğu və on minlərlə insanın vəfat etdiyi pandemiya nəticəsində bütün ölkələrdə karantin rejimi tətbiq olunmuş, milyonlarl iş yeri bağlanmış,qlobal iqtisadiyyat xaos şəraitində çox ciddi zərbə almışdır.

Lakin yuxarıda qeyd etdiyimiz kimi Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmiz bu qlobal kataklizmlərdən mümkün qədər az zərərlə çıxmağa çalışır və buna uğurla nail olur. Belə ki, bütün digər neft ixrac edən ölkələrin milli valyutaları dəyər itirsədə Azərbaycanda həyata keçirilən uğurlu maliyyə - pul siyasəti manatın dəyərini sabit saxlamağa imkan verdi və bu əhalinin rifah halında neqativ halların qarşısını aldı. Habelə karantin şəraitində məcburi olaraq biznes fəaliyyətinə fasilə verən xidmət sektorunun, kiçik, orta və iri sahibkarların itirdiyi mənfəəti kompensasiya etmək üçün dövlət 2, 5 milyard manat vəsait ayırdı. O cümlədən rəsmi işsiz vətəndaşlar üçün karantin davam etdiyi müddətdə xüsusi müavinətlər ayrıldı ki, son üç gündə artıq 75 mindən artıq şəxs bundan faydalandı. Dövlət başçımızın qeyd etdiyi kimi bütün bu yardımlar neftin ucuzlaşması nəticəsində ölkəmizin 1 milyard dollara yaxın bir itkiyə məruz qalacağı proqnozlaşdırılaraq həyata keçirilmişdir.



*Siyavuş Novruzov, YAP İcra katibinin müavini, Milli Məclisin Regional məsələlər komitəsinin sədri*

Qürur hissi ilə qeyd etmək olar ki, Azərbaycan bugün COVİD-19 ilə mübarizədə ən qabaqcıl ölkələr sırasındadır. Bir neçə əsas beynəlxalq göstərici ilə bu reallığı arqumentləşdirə bilərik. İlk növbədə, virusun müəyyənləşdirilməsi üçün fərdi testlərin aparılmasında Azərbaycan 70 mindən artıq testlə dünyada ən inkişaf etmiş 30 ölkə arasında yer almaqdadır. Digər göstəriciyə görə də, yəni ümumi xəstə sayının və vəfat edənlərə nisbəti statistikasında da ölkəmiz 1,2 -lik bir əmsalla dünyanın ən güclü səhiyyə sisteminə malik dövlətləri ilə eyni sırada dayanır. Habelə, Qərbin inkişaf etmiş ölkələrində xəstəxana yataqları, reanimasiya kabinetləri və kislorod maskaları ilə bağlı çatışmamazlıqlara Azərbaycanda ümumiyyətlə rast gəlinmədi. O cümlədən, Azərbaycanda tikilən 550 çarpayılıq xəstəxana açılan gündən koronavirus xəstələrinin istifadəsinə verildi (ABŞ-da çadırlardan və gəmilərdən xəstəxana kimi istifadə edirlər). Bundan başqa dövlət başçısının sərəncamı ilə hər biri 200 yerlik, 6 dövlət, 4 özəl modul tipli yeni xəstəxana inşasına başlanıldı. Həmçinin virusun yayıldığı ilkin mərhələdə xaricdən xüsusi reyslərlə ölkəmizə gətirilən 15 minə yaxın vətəndaşımız üçün ölkəmizin inkişaf etmiş otel, istirahət mərkəzləri və Olimpiya şəhərciyi təqdim olundu və yerləşdirildi.

Görülmüş bu qədər işlərin fonunda çox təəssüf ki, cəmiyyətdə məqsədsiz- məramsız həyat sürən tüfeyli və radikal müxalifət dairələri öz ampulalarına sadiq qalaraq şərböhtan kampaniyalarından geri qalmadılar. Onlar "ölkə üçün nə qədər pis olsa, bizim üçün o qədər yaxşı olar " kimi üzdəniraq siyasət fəlsəfələrinə uyğun olaraq, Azərbaycan hakimiyyətinin əhalimizi qorumaq üçün aldığı karantin tədbirlərini tənqid etməyə, bu addımlara ehtiyac olmadığına inandırmağa çalışdılar. Lakin, bütün dünyada alınan karantin tədbirlətinin hətta fövqaladə vəziyyət və komendant saatına qədər ciddiləşdiyini görəndən sonra, bu dəfə də hakimiyyəti yetərli tədbirlər almamaqda günahlandırdılar. Həqiqətən də tragikomik mənzərədir. Cəmiyyət həyatına aid heç bir sahədə ciddi bir proqrama, alternativ planlaşdırmalara malik olmayan radikal müxalifət bu dəfə də fövqəladə vəziyyətin yaratdığı imtahandan keçə bilmədi, hər zamanki kimi sinifdə qaldı. " Narıncı inqilabların" bir sıra şərqi Avropa və post- sovet ölkələrində yaratdığı böhrana və onların məruz qaldığı ərazi itkilərinə məhəl qoymayaraq " narıncı" geyinib küçələrə çıxan, yaxın şərqin sabit ölkələrini vətəndaş müharibəsi və xaosa sürükləyərək viran qoyan "ərəb baharından" təsirlənib öz ölkəsini də belə vəziyyətə salmağa çalışan bir müxalifətə milli demək olarmı? Xalqımız onların adını çoxdan verib- xəyanətkar.

Bəs öz ölkəsinə qarşı bu qədər kin-küdurətin səbəbi nədir? Öz ölkəsi haqqında xaricə donos yazan Əli Kərimlilərin, Avropaya və ABŞ-a qaçan Cəmil Həsənlilərin, Qənimət Zahidin, erməni mənşəli Arif Məmmədovun, İsa Sadıqov kimi dostlarının ordan hədyan yağdıran çirkin fikirlərini diqqət yetirsək, cavab aydın olacaq. Necə deyərlər, dostunu göstər, kim olduğunu söyləyim. Erməni olduğu üçün Azərbaycandan qaçmağa məcbur olduğunu deyib, buna uyğun sənədlər düzəldib ölkədən qaçan Ramiz Yunus bunlardan biridir. Özünü vətənpərvər hesab edən müxalifətçiləri görəsən bu anadangəlmə reneqat Yunuslarla nə birləşdirir? Ermənidən mədət uman bir müxalifət Azərbaycana lazımdırmı? Fikrimcə onlar əvvəlcə bu sualların cavabını axtarsalar daha yaxşı olardı. Bəlkə o zaman Azərbaycan xalqının nəzərində niyə heç bir nüfuza sahib olmadıqlarını dərk etdilər.

Osmanqızı isə başqa bir faciəvi fiqurdur. Mərhum atası ermənilər tərəfindən qətlə yetirilən (Ramiz Yunusun dayıları tərəfindən) bu xanım 5-ci kolonun ruporuna çevirilərək erməni dəyirmanına su tökür. Hətta bir çox məsələlərdə Ermənistanı Azərbaycanla müqayisə edərək düşmən ölkəni üstün tutur. COVİD-19 qarşı alınan tədbirlərdə Ermənistanı Azərbaycandan öndə olduğunu bildirən osmanqızılar, yunuslar adi statistikanıda unudurlar. Belə ki, Azərbaycan əhalisi Ermənistandan 3,5 dəfə artıq olsa da, virusla xəstə sayı demək olar ki, bərabərdir. Test keçirilən vətəndaş sayı isə bizdə onlardan 10 dəfə artıqdır. Düşmən ölkənin bir sıra ekspertləri həyacan təbili çalaraq, karantinə görə izolyasiya şəraitinə məhkum olan Ermənistanın fəlakət qarşısında olduğunu bəyan edirlər. Hətta onların baş naziri də bunu etiraf etməyə məcbur olur. Görünür bizim radikallar Ermənistanı ermənilərdən çox sevirlər. Nə demək olar? Fikrimcə sual ritorikdir.

Yekunda vurğulamaq istərdim ki, qlobal və ya regional səviyyədə baş verən fors-major hallara baxmayaraq Azərbaycan dövləti gələcəyə əmin addımlarla gedir. Bütün iri miqyaslı layihələr uğurla həyata keçirilir, sosial- iqtisadi rifah ardıcıl olaraq yüksələn xətt üzrə inkişaf edir. Möhtərəm Prezidentimiz İlham Əliyevin 2020-ci ilin ilk rübünün yekunlarına həsr olunmuş müşavirədə qeyd etdiyi kimi: "Bizim siyasətimizdə Azərbaycan xalqının rifahından və sağlamlığından dəyərli heçnə yoxdur!"

# Sevinc Fətəliyeva: "Ölkəmiz beynəlxalq müstəvidə mövqelərini gücləndirməkdə davam edib"

"Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə hesabat dövrünün nəticələri və qarşıda duran vəzifələr geniş müzakirə olundu". SİA-nın verdiyi məlumata görə, bu fikirləri Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini, YAP-ın Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sevinc Fətəliyeva deyib.

S.Fətəliyeva bildirib ki, dünyada koronavirus pandemiyasının hökm sürdüyü şəraitdə ölkəmizdə vacib tədbirlər həyata keçirilir. Bunun nəticəsində başqa ölkələrlə müqayisədə Azərbaycanda vəziyyət kritik deyil.

S.Fətəliyeva söyləyib ki, bu ilin birinci rübü ərzində ölkəmiz beynəlxalq müstəvidə mövqelərini gücləndirməkdə davam edib. Onun sözlərinə görə, cənab Prezidentin Davos Forumunda və Münxen Təhlükəsizlik Konfransında iştirakı böyük əhəmiyyət kəsb edir. Çünki hər iki beynəlxalq tədbirdə dövlətimizin vacib görüşlər keçirib, Azərbaycanın beynəlxalq əlaqələrinin daha genişləndirilməsi yönündə vacib addımlar atılıb. "Xüsusilə, Münxen Təhlükəsizlik Konfransında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair debatın təşkil olunması çox mühüm hadisə idi. Bu hadisə işğalçı Ermənistanın təbliğatını darmadağın edib. Azərbaycan Prezidenti bütün beynəlxalq tribunalardan dövlətimizin bu məsələdə prinsipial mövqeyini bir daha səsləndirib. Bu münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Mart ayının sonunda isə işğalçı Ermənistan və separatçı rejim tərəfindən Dağlıq Qarabağda qondarma "seçki" keçirildi. Dünya ölkələrinin və beynəlxalq təşkilatların mütləq əksəriyyəti həmin "seçkiləri" tanımadılar. Belə ki, ATƏT-in Minsk qrupunun həmsədrləri, ATƏT Parlament Assambleyası, Avropa İttifaqı, 120 dövləti özündə birləşdirən Qoşulmama Hərəkatı, NATO, İslam Əməkdaşlıq Təşkilatı, Türk Şurası və digər təşkilatlar bu seçki şousunu pislədilər. Bütün bunlar onu göstərir ki, beynəlxalq birlik Dağlıq Qarabağı Azərbaycanın ərazisi kimi tanıyır. Amma Avropa Şurası tərəfindən bu seçki şousuna heç bir münasibət bildirilmədi. Cənab Prezidentin qeyd etdiyi kimi bu təşkilat Azərbaycana şər, böhtan atmaqla məşğuldur. Təbii ki, bu fakt təşkilatın hansı maraqlara xidmət etdiyinin göstəricisidir. Əslində, bu gün həmin təşkilatda ciddi böhran hökm sürür və onun özündə ciddi islahatların aparılmasına ehtiyac var. Beynəlxalq təşkilatlardan söz düşmüşkən, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının fəaliyyəti, üzv dövlətlərin əməkdaşlığı bütün dünyaya nümunə ola bilər. Türk Şurası dünyanın yeganə təşkilatıdır ki, dövlət başçıları səviyyəsində koronavirusla bağlı Zirvə görüşü keçirib və bu görüşdə Azərbaycanın koronavirusla mübarizə istiqamətində təcrübəsi dünya üçün nümunə kimi qiymətləndirilib"-deyə, komitə sədrinin müavini vurğulayıb.



Millət vəkili qeyd edib ki, müşavirədə cənab Prezident ölkəmizdə həyata keçirilən islahatların, o cümlədən siyasi dialoqun əhəmiyyətini vurğulayıb. Çünki bu islahatlar idarəetmə mexanizminin daha da təkmilləşdirilməsinə xidmət edir. Eləcə də, parlament müstəvisindəki yeniliklər siyasi sistemin təkmilləşdirilməsi və siyasi münasibətlərin sağlam zəmində qurulması istiqamətində atılmış önəmli addımdır. S.Fətəliyeva deyib ki, radikal müxalifət hazırki şəraitdə də dövlətimizə qarşı böhtan kampaniyası aparır. Amma onların cəmiyyətdə heç bir dayağı olmadıqları üçün belə kampaniyalar hər zamankı kimi iflasa məhkumdur. Onun fikrincə, Azərbaycanın siyasi səhnəsində radikallara yer yoxdur. yap.org.az

*Ceyhun Rasimoğlu*

# Həmrəylik və qardaşlıq nümunəsi











Dünya koronavirusla mübarizəni davam etdirir. Bu, heç də asan deyil. Bəzi ölkələrdə koronavirusun yayılması azalır, bəzilərində isə əksinə artır. Təəssüf ki, bu mübarizədə bəzi qüsurlar da ortaya çıxdı, tibbi ləvazimatlar oğurlandı, qarşılıqlı ittihamlar çoxaldı və sair.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclis Sədrinin müavini Adil Əliyev söyləyib. Adil Əliyev qeyd edib ki, Azərbaycan dövləti hər zaman olduğu kimi, bu dəfə də müsbət nümunələrlə yadda qaldı. Bəzi ölkələrə tibbi ləvazimatlar göndərildi, qonşu İrana təxminən 5 milyon ABŞ dolları məbləğində yardım edildi. Türk Şurasına üzv dövlətlərin videokonfransının keçirilməsi təşəbbüsü də Azərbaycan Prezidenti İlham Əliyevə məxsus idi. Bu da müsbət nümunə idi.

İndiki durumda ölkə liderlərinin müzakirələri davam etdirmələrinin və yardımlaşmaya hazır olmalarının həmin dövlətlərdə yaşayan insanlar üçün psixoloji baxımdan çox vacib olduğunu qeyd edən Milli Məclis Sədrinin müavini deyib: “Pandemiya bitəcək, hansı dövlətin özünü necə aparması isə yaddaşlara həkk olunacaq. Həyat davam edir, insanlar gələcəyə ümidlə baxmalıdırlar. Koronavirusla mübarizə ilə yanaşı, gündəlik məsələlər də həll olunmalıdır, yollar çəkilməli, təsərrüfatlarda toxum səpinləri aparılmalı, zəruri inşaat işləri davam etdirilməlidir. Bu mənada Azərbaycan dövləti həm koronavirusla mübarizəni uğurla davam etdirir, həm insanları yoluxmadan qorumaq üçün tədbirlərini gücləndirir, eyni zamanda, iqtisadiyyatı ayaqda tutur, sosial problemlərin həlli ilə məşğuldur. Təsadüfi deyil ki, dövlətimizin başçısının rayon və qəsəbələrin problemlərinin həllinə yönələn qərarlarının arası kəsilmir”.

Adil Əliyev diqqətə çatdırıb ki, Ulu Öndərin şərəfli adını daşıyan Heydər Əliyev Mərkəzi də koronavirusla mübarizədə ön cərgədədir. Mərkəzin əməkdaşları həm insanlara yardım edir, həm qanvermə aksiyalarına qatılır, həm də koronavirusla üzləşən dövlətlərə mənəvi dəstəklərini nümayiş etdirirlər. Aprelin 3-dən başlayaraq hər gün virusdan zərərçəkən bir dövlətin bayrağı həmin ölkənin musiqisinin sədaları altında Mərkəzin binası üzərinə videoproyeksiya olunur. Bununla Heydər Əliyev Mərkəzi koronavirusun geniş yayıldığı dövlətlərə və onların xalqlarına dəstəyini, hörmət və ehtiramını ifadə edir. İndiyədək koronavirusun geniş yayıldığı Çin, Fransa, Almaniya, Türkiyə, İran, İtaliya, Rusiya və İspaniyanın bayraqları Mərkəz binasının üzərində nümayiş etdirilib.

Aprelin 11-də Heydər Əliyev Mərkəzinin binası üzərinə Türkiyə Respublikasının bayrağı bu ölkənin musiqisinin müşayiəti ilə videoproyeksiya olundu. Türkiyə mətbuatı bu hadisəni geniş işıqlandırdı. Qardaş ölkənin Xarici İşlər naziri Mövlüd Çavuşoğlu sosial şəbəkədə paylaşım edərək “Tək millət, tək ürək, Türkiyə, Az?rbaycan! Birlikdə öhdəsindən gələcəyik” cümləsini yazdı. Əlbəttə, öhdəsindən gələcəyik! Türk birliyini gücləndirmək üçün bizi qarşıda hələ böyük işlər gözləyir. Azərbaycan və Türkiyə prezidentlərinin Türk Şurasının son videokonfransında çıxışlarının əsas qayəsini də məhz türkdilli dövlətlər arasında inteqrasiyanın gücləndirilməsi təşkil edirdi. Azərbaycanın Türkiyə ilə birgə reallaşdırdığı regional layihələrin Mərkəzi Asiyadakı digər qardaş ölkələrə qədər uzanması bundan xəbər verir.

“Qardaşlığın daha bir nümunəsi Türkiyənin paytaxtı Ankarada yerləşən məşhur Atakule qülləsinin Azərbaycan bayrağı ilə işıqlandırılması oldu. İşıqlandırma Türkiyə televiziyaları tərəfindən canlı nümayiş etdirildi. Heydər Əliyev Mərkəzinin binasında olduğu kimi, Atakule qülləsindəki mənzərə də möhtəşəm idi. İşıqlandırma prosesində qüllənin zirvəsində ümummilli lider Heydər Əliyevin “Bir millət, iki dövlət” ifadəsinin, onun ardınca isə “Can Azərbaycana sevgilərlə” şüarı üçrəngli bayrağımızın rəngləri fonunda hərəkətdə olması birliyimizin dönməzliyinin və həmrəyliyimizin nümunəsi idi”, - deyə Milli Məclis Sədrinin müavini vurğulayıb.

# "İmzalanan Dövlət proqramları və onların uğurlu icrası müsbət nəticə verdi"



***"Dünyanı bürüyən koronavirus infeksiyasının ölkələrin iqtisadi və sosial durumunu ağırlaşdırdığı indiki şəraitdə hər bir dövlət öz imkanlarından maksimum istifadə etməklə yaranmış vəziyyətdən çıxmaq üçün yollar axtarır. Azərbaycan dövlətinin ilk gündən atdığı addımlar bu itkilərin miqyasının genişlənməməsini stimullaşdırdı". Bu fikirləri SİA-ya Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə deyib.***

Vüqar Rəhimzadə bildirib ki, Prezident İlham Əliyev tərəfindən müvafiq Sərəncamın imzalanması, 4 sektoru və 20 fəaliyyət sahəsini əhatə edən 10 proqramın təsdiqi və icrasına başlanılması ölkəmizin möhkəm iqtisadi bazaya malik olduğunu, bu əsaslara söykənərək genişmiqyaslı iqtisadi və sosial paket həyata keçirdiyini bir daha təsdiqləyir: "Dövlətin əsas məqsədinin, ilk növbədə, vətəndaşların təhlükəsizliyi, sağlamlığı və onların rifahı olduğundan genişmiqyaslı iqtisadi və sosial paket həm iqtisadi sahədə artan dinamikaya müsbət təsir göstərəcək, eyni zamanda, həssas təbəqəyə aid olan vətəndaşları bu böhrandan qoruyacaq. Bu barədə Prezident İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində müşavirədə bu kimi məqamlara xüsusi diqqətin yönəldilməsi bir daha Azərbaycanda islahatların davam etdirilməsinin yaxşı nəticələrə gətirib çıxardığını əsaslandırır."

"Pandemiyaya qarşı mübarizənin ilk günlərindən indiyədək Azərbaycanın həyata keçirdiyi tədbirlər göz önündədir" deyən Vüqar Rəhimzadə əlavə edib ki, qabaqlayıcı tədbirlərin həyata keçirilməsi virusun coğrafiyasının genişlənməməsini təmin etmişdisə, atılan digər mühüm addımlar nəticəsində Azərbaycanda bütün çatışmazlıqlar aradan qaldırıldı: "Cənab İlham Əliyevin tapşırığına uyğun olaraq qısa zamanda, cəmi iki həftə ərzində maska istehsal edən müəssisənin istifadəyə verilməsi dövlətimizin əhalinin sağlamlığının təminatında nə qədər maraqlı olduğunu, yoluxma hallarının qarşısının alınmasına səy göstərdiyini bir daha nümayiş etdirdi. Təbii ki, bu kimi mühüm addımların atılmasında ölkəmizin iqtisadi imkanları əsas yer tutur. Cari ilin ilk aylarının sosial-iqtisadi göstəricilərinə diqqət yetirdikdə Azərbaycan iqtisadiyyatının möhkəm təmələ əsaslandığını böyük əminliklə qeyd edə bilərik. 2003-cü ildən bəri enerji sektorundan asılılığın minimuma endirilməsi istiqamətində atılan addımlar öz müsbət nəticəsini verir. Neftin qiymətinin ani düşməsi digər ölkələrin iqtiisadiyyatına tez bir müddətdə öz mənfi təsirini göstərdiyi halda Azərbaycan iqtisadiyyatın düzgün əsaslar üzərində qurulması nəticəsində bunu hiss etmədi. Neft siyasətinin məntiqi davamı olaraq qeyri-neft sektorunun inkişafı istiqamətində görülən tədbirlər, regionların malik olduğu enerji resurslarından səmərəli istifadə etmək məqsədilə imzalanan Dövlət proqramları və onların uğurlu icrası öz müsbət nəticəsini verdi".

Vüqar Rəhimzadə xüsusi vurğulayıb ki, neftlə zəngin çox ölkələr var, amma onlarda bu resurs heç də əhalinin sosial müdafiəsinin gücləndirilməsinə xidmət etmir, əhali arasında təbəqələşmə prosesi sürətli xarakter alır: "Lakin Azərbaycanın öz iqtisadi inkişaf strategiyasını dünyanın qabaqcıl ölkələrinin təcrübəsinə uyğun işləyib hazırlaması bu problemi yaşamamasını şərtləndirdi. Ölkəmiz hər bir çətinlikdən uğurla çıxaraq öz inkişaf modelinin nümunəviliyini dünyaya nümayiş etdirir. Məhz qeyd olunan müşavirədə bu iqtisadi bazaya əsaslanaraq iqtisadi vəziyyətə pandemiyanın təsiri ilə əlaqədar hökumətə bir sıra tapşırıqlar verən Prezident İlham Əliyev 2020-ci ilin də bir çox sahələri əhatə edən dərin islahatlar dövrü olacağını böyük inamla qeyd edib".

"İki sahil" qəzetinin baş redaktoru diqqətə çatdırıb ki, 2020-ci il Azərbaycan üçün uğurla başlayıb, inkişaf, tərəqqi müşahidə olunub və islahatların davam etdirilməsi yaxşı nəticələrə gətirib çıxarır.

# "Azərbaycan nümunəvi təcrübə yaratmağı bacaran bir ölkədir"



***"2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfransda Prezident İlham Əliyev cari ilin birinci rübündə ölkəmizdə həyata keçirilən sosial-iqtisadi siyasətin nəticəsində meydana çıxan reallıqlardan danışdı və məlum oldu ki, bütün çətinliklərə, koronovirus pandemiyasının gətirdiyi təhlükələrə baxmayaraq Azərbaycan vaxtında qabaqlayıcı tədbirlər görməklə həm iqtisadi fəallıq, həm də vətəndaşlarımızın təhlükəsizliyinin təmin edilməsi sahəsində mühüm uğurlar əldə edib. Ancaq bu iki mühüm faktorun öncəliyinə gəldikdə isə Prezident İlham Əliyev ilk növbədə vətəndaşların sağlamlığının vacibliyini xüsusi olaraq vurğulayaraq bildirdi ki, əsas məqsədimiz koronavirusla apardığımız mübarizədə qalib gəlmək, bu vəziyyətdən az itkilərlə çıxmaq, iqtisadiyyata az ziyan vurmaqdır.***

Çünki biz açıq-aydın başa düşürük ki, bu məhdudlaşdırıcı tədbirlər iqtisadiyyata ziyandır. Burada biz iki amil arasında seçim etməliyik - iqtisadi fəallıq, insanların sağlamlığı. Mənim seçimim birmənalıdır - insanların sağlamlığı". Bu fikirləri SİA-ya "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, millət vəkili Hikmət Babaoğlu deyib.

Deputatın sözlərinə görə, bu mövqe Azərbaycan vətəndaşlarının sağlamlığı və səhhətinin daima Prezident İlham Əliyevin diqqət mərkəzində olmasından xəbər verməklə elə sosial dövlət siyasətinin də əsaslarını təşkil edir: "Hazırki mürəkkəb vəziyyətdə dövlətimizin həyata keçirdiyi sosial siyasət sayəsində həm vətəndaşlarımızın sağlamlığının qorunması təmin edilir, həm də onların sosial ehtiyacları qarşılanır. Bu mənada Azərbaycan nümunəvi təcrübə yaratmağı bacaran bir ölkədir. Məhz bu siyasətin nəticəsidir ki, hazırda koronovirus pandemiyasına qarşı Azərbaycan effektiv mübarizə aparan ölkələr sırasındadır. Videokonfrans-müşavirədə qeyd edildi ki, koronavirusla bağlı ümumi dəstək paketi 2,5 milyard manat həcmindədir. Bu olduqca böyük məbləğdir və kifayət qədər effektiv nəticələr əldə etməyimizə səbəb olacaq. Ancaq digər istiqamətlər üçün də əlavə maliyyə mənbələri nəzərdə tutulur ki, bunlar da tibbi avadanlıqların və digər tibbi vasitələrin təmin olunmasına xidmət edəcək. Başqa bir istiqamət isə sosial təminatı zəif olan vətəndaşlarımıza birdəfəlik yardımların ödənilməsidir ki, bu da bu ilin birinci rübündə bütün sosial ödənişlər üzrə 2,3 milyon vətəndaşımıza 1,5 milyard manat məbləğində sosial ödənişlərin həyata keçirilməsidir. Bundan əlavə kommunal xidmətlərin güzəştli şərtlərlə ödənilməsi müvafiq sosial təbəqəyə mənsub olan vətəndaşlarımızın təhsil haqlarının dövlət tərəfindən qarşılanması haqqında qərarlar qəbul edilib ki, bütün bunlar vətəndaşlarımızın yaranmış vəziyyətdə maksimum sosial müdafiələrinin təmin edilməsinə hesablanıb.

Müşavirədə mövcud məhdud şərtlərdə iqtisadi inkişfımızın bundan sonrakı mərhələdə təmin edilməsi istiqamətlərində də xüsusi tövsiyyələr və göstərişlər verildi. Bunlardan biri də ərzaq təhlükəsizliyimizi təmin etmək üçün kənd təsərrüfatı məhsullarının istehsalının artırılması istiqamətində idi ki, Prezident elə müşavirədəcə bu problemin həlli ilə müvafiq maliyyə mənbəyini göstərməklə xüsusi tapşırıqlar verdi. Azərbaycan Prezidenti qeyd etdi ki, 2020-ci il də sosial-siyasi islahatlar ili olacaq. Doğurdan da hər kəsə bəllidir ki, bu günə qədər həyata keçirilən islahatlar öz müsbət nəticələrini verməkdədir ki, bu da islahatların davamlılığını zəruri edir. Ona görə də cari ildə də islahatlar tendensiyasının davam etdiriləcəyinin şahidi olacağıq. Videokonfrans-müşavirədə dövlət başçımızın toxunduğu ən mühüm məsələlərdən biri də belə mürəkkəb şəraitdə koronovirus pandemiyasından da sui-istifadə etmək istəyən marginal radikal qrupların antimilli fəaliyyətlərininin ifşası ilə bağlı oldu. Haqlı olaraq belə radikal qruplaşmaların hakimiyyətə deyil dövlətimizə və millətimizə qarşı müxalifətdə olduqlarnı bildirdi. Doğurdan da dünyanın heç bir yerində öz xalqının ən çətin vaxtlarında belə onun maraqlarına zərbə vuracaq müxalifət yoxdur. Bunu edənlər xalqın düşmənləridir. Ancaq buna baxmayaraq Azərbaycan xalqı milli birlik və həmrəylik nümayiş etdirərək öz Prezidenti ilə birgə hərəkət etməklə bütün dünyanı təhdid edən koronovirus təhlükəsi və onun gətirdiyi iqtisadi və maddi çətinliklərinin də öhdəsindən layiqincə gəlməyi bacaracaq".

**Ceyhun Rasimoğlu**

# "Prezident İlham Əliyev keçirdiyi müşavirədə Azərbaycanın uğur tandemini hədəflədiyini və bu hədəfləri əldə etdiyini vurğulayıb"



Azərbaycanda sosial-iqtisadi inkişafın dinamikası kifayət qədər münbit əsaslara söykənib və bu dinamika hətta koronavirus pandemiyası dövründə özünü qoruyub-saxlamaqdadır. Prezident İlham Əliyev keçirdiyi müşavirədə Azərbaycanın uğur tandemini hədəflədiyini və bu hədəfləri əldə etdiyini vurğulayıb.

SİA xəbər verir ki, bunu "Trend"ə açıqlamasında "SƏS" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev Prezident İlham Əliyevin Sədrliyi ilə 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində keçirilən müşavirədə irəli sürdüyü fikirlərini şərh edərkən deyib.

Onun sözlərinə görə, müşavirədə ilin birinci rübündə həyata keçirilən tədbirlərdən danışan Prezident İlham Əliyevin Azərbaycanda islahatların davam etdirilməsinin yaxşı nəticələrə gətirib çıxarmasını vurğulaması bir daha sübut edir ki, ölkəmiz istənilən fors-major hallardan qalib şəkildə çıxmağa qadir olan iqtisadiyyata malikdir:

"Bütövlükdə isə düşünürəm ki, artıq ölkəmizdə aparılan düşünülmüş siyasət bir sıra mühüm qabaqlayıcı tədbirlərin reallaşdırılması ilə öz uğurlu sözünü deməkdədir. Xalqımızın, dövlətimizin lideri bu xüsusdakı çıxışında da əsasən qeyd edib ki, koronavirus pandemiyası ilə mübarizə çərçivəsində görülən işlər, həmçinin gerçəkləşdirilən sosial tədbirlər qarşıdakı zamanda da həyata keçiriləcək. Yəni islahatlar davam edəcək. Bu amil təbii ki, irəliyə doğru atılan inamlı addımların məntiqi, uğurlu nəticəsidir".

"Cənab Prezident İlham Əliyev Azərbaycanda vəziyyətin nəzarət altında saxlanıldığını bildirməklə yanaşı, iqtisadi vəziyyətə pandemiyanın təsiri ilə əlaqədar hökumətə bir sıra tapşırıqlar da verib", deyən siyasi ekspert əlavə edib ki, ölkə başçısı 2020-ci ilin də bir çox sahələri əhatə edən dərin islahatlar dövrü olacağını vurğulayıb və bu tezislər qarşıda əldə ediləcək növbəti nailiyyətlərin anonsu olaraq da qiymətləndirilə bilər:

"Dövlətimizin başçısı çıxışı əsnasında bu faktoru xüsusilə nəzərə çatdırdı və hər şeyə rəğmən, ilin sonuna qədər sosial islahatların ixtisara salınmayacağını bəyan etdi".

Bəhruz Quliyev bildirib ki, Azərbaycan bütün istiqamətlər üzrə yüksələn xətlə yalnız və yalnız irəliyə doğru gedir:

"Biz bunu daxili və xarici siyasətdə, regional və beynəlxalq liderlik gerçəkliyində və s. çoxsaylı, qlobal layihələrin həyata keçirilməsində şahid kimi görməkdəyik. Məhz bu baxımdan, Prezident İlham Əliyev keçirdiyi müşavirədə Azərbaycanın uğur tandemini hədəflədiyini və bu hədəfləri əldə etdiyini vurğulayıb".

# "İnanırıq ki, bu çətin günlər tezliklə arxada qalacaq və Azərbaycan sürətli inkişafını davam etdirəcək"



## *Milli Məclisin deputatı İlham Məmmədovun yap.org.az-a müsahibəsi*

***- İlham müəllim, məlum olduğu kimi Azərbaycan Prezidenti, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Sədri İlham Əliyevin təşəbbüsü ilə aprelin 10-da videokonfrans vasitəsilə Türk Şurasının fövqəladə Zirvə görüşü keçirilib. Zirvə görüşünün əhəmiyyətini necə qiymətləndirirsiniz?***

- İlk növbədə qeyd etmək istəyirəm ki, Türk Şurasının fövqəladə Zirvə görüşünün COVİD-19 pandemiyasına həsr olunması çox vacib hadisədir. Zirvə görüşünün dövlətimizin başçısının təşəbbüsü ilə keçirilməsi Azərbaycanın regionda aparıcı söz sahibinə malik olduğunu bir daha nümayiş etdirdi. Türk Şurasının Zirvə görüşünün gündəliyində yer alan məsələ bütün ölkələr üçün strateji maraq doğurdu. Prezident İlham Əliyevin Zirvə görüşündəki geniş və əhatəli çıxışında çox vacib məqamlara toxunuldu.

Bu gün bütün bəşəriyyəti öz cənginə alan koronavirus pandemiyasının yayılmasının qarşısının alınması istiqamətində Azərbaycanda qabaqlayıcı tədbirlərin görüldüyünü qeyd edən ölkə Prezidenti bundan sonrada bu tədbirlərin davam etdiriləcəyini Zirvə görüşü iştirakçılarının nəzərinə çatdırdı. Zirvə görüşünün iştirakçıları Azərbaycan Prezidentinin koronovirus təhlükəsinin genişlənməsinin qarşısının alınması istiqamətində atdığı məqsədyönlü addımları yüksək qiymətləndirdilər.

Ölkəmizdə koronavirusun sürətlə yayılmasının qarşısının alınması məhz Prezident İlham Əliyevin zamanında qəbul etdiyi doğru qərarların göstəricisidir. Dövlət başçısının göstərişi ilə Nazirlər Kabineti yanında Operativ Qərargahın yaradılması, ölkədə məhdudlaşdırıcı izoliyasiya tədbirlərinin və xüsusi karantin rejiminin tətbiqi yayılmanın minumum həddə salınması üçün əsas oldu. Türk Şurasının üzv dövlətlərinin rəhbərləri Zirvə görüşü zamanı Azərbaycan Prezidentinin bu qətiyyətli addımlarını alqışladılar.

***- Hazırda ölkəmizdə koronavirusla mübarizə istiqamətində mühüm addımlar atılır. Görülən işlər hansı nəticələr verir?***

- Bilirsiniz ki, hazırda bütün dünya koronovirus pandemiyası ilə mübarizəyə səfərbər edilib. Azərbaycan bu prosesdə ən öndə gedən ölkələrdən biridir. Ölkəmizdə koronovirus infeksiyasının geniş yayılmasının qarşısının alınması məqsədilə hökumət tərəfindən sistemli addımlar atılır. Xüsusi karantin rejiminin tətbiq olunması da bu məqsədə xidmət edir. Koronovirusun vura biləcəyi zərərin qarşısının alınması üçün dövlət başçısının tapşırığına əsasən Nazirlər Kabineti müvafiq Tədbirlər Planı təsdiqləyib. Məqsəd vətəndaşların sosial müdafiəsini tam təmin etməkdir. Görülən bu işlərin fonunda vətəndaşlar karantin rejiminin qaydalarına əməl etməlidir.

Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciətində karantin rejiminə riayət edilməsinin zəruriliyini bir daha vurğulayıb. Cənab Prezident İlham Əliyev bildirib ki, Nazirlər Kabinetinin təsdiq etdiyi Tədbirlər Planına əsasən 2,5 milyard manat ayrılacaq ki, Azərbaycanda həm iqtisadi sabitlik təmin edilsin, məşğulluqla bağlı problemlər öz həllini tapsın və həm də bizim makroiqtisadi və maliyyə vəziyyətimiz sabit olsun. Dövlətimizin başçısı qeyd edib ki, insanların sağlamlığı, təhlükəsizliyi, rahatlığı və rifahı bizim üçün hər şeydən üstündür. Cənab Prezident vətəndaşlara müraciətlə söyləyib: "Məsuliyyətli olun, nizam-intizamı, qaydaları pozmayın, özünüzü, uşaqlarınızı, yaxınlarınızı qoruyun ki, biz bu ağır vəziyyətdən az itkilərlə çıxa bilək! Biz birlikdə güclüyük!". Hər bir vətəndaşımız Prezident İlham Əliyevin çağırışına ciddi şəkildə əməl etməlidir. Əməl olunmalıdır ki, hökümətimizin göstərdiyi səylər öz nəticəsini versin, koronovirus bəlasından tezliklə xilas ola bilək. Çünki bu problemdən, üzləşdiyimiz sınaqdan birliyimiz və həmrəyliyimizlə xilas ola bilərik.

Müəyyən anti-milli qüvvələr koronavirusdan da öz siyasi məqsədləri üçün istifadə etməyə çalışır. Amma onların çirkin niyyətləri hər zaman iflasa məhkumdur. Oların cəmiyyətdən heç bir dəstək ala bilməməsi buna sübutdur.

***- Aprelin 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində müşavirə keçirilib. Bu barədə də fikirlərinizi bilmək istərdik...***

- Müşavirədə dövlətimizin başçısı dərinməzmunlu çıxış etdi. Prezident İlham Əliyev qeyd etdi ki, ilin əvvəlinin göstəriciləri deməyə əsas verir ki, Azərbaycanda islahatların davam etdirilməsi yaxşı nəticələrə gətirib çıxarır. Xüsusilə yanvar-fevral aylarında həm iqtisadi, həm də sosial göstəricilərimiz çox müsbət olub. Mart ayında isə müəyyən qədər tənəzzülə uğradıq. Bu da təbiidir. Çünki koronavirus bütün dünya üçün böyük bəladır və dünya iqtisadiyyatı üçün böyük problemdir. Cənab Prezident qeyd edib: "Əgər ilin 3 ayını bütövlükdə götürsək, görərik ki, yenə də inkişaf, tərəqqi var. Ancaq hər kəs bilməlidir ki, indi dünya yeni bir mərhələyə qədəm qoyub və hətta ən inkişaf etmiş ölkələr böyük problemlərlə üzləşiblər. Koronavirus böyük bəladır, 100 mindən çox insanın həyatına son qoyub. Demək olar ki, dünyanın bütün ölkələrində koronavirusla bağlı problemlər yaşanır. Azərbaycan da dünyanın bir parçasıdır. Ancaq deyə bilərəm ki, qabaqlayıcı tədbirlər və düşünülmüş siyasət nəticəsində biz vəziyyəti nəzarət altında saxlayırıq. Hesab edirəm ki, bu günə qədər atılmış bütün addımlar düzgün istiqamətdə atılmış addımlardır. Məhz bu addımların atılması nəticəsində Azərbaycanda vəziyyət nəzarət altındadır".

Müşavirədə dövlətimizin başçısı qeyd edib ki, əgər koronavirus pandemiyası müdaxilə etməsəydi, bizim uğurlarımız daha da böyük həcmli olardı. Ancaq əminəm ki, biz bu ağır vəziyyətdən də çıxacağıq, iqtisadiyyatımız, iş yerləri bərpa ediləcək.

Ümumiyyətlə, ötən il ölkəmizin sosial-iqtisadi inkişafında əldə edilən nəticələr, aşağı inflyasiya və sabit milli valyuta şəraitində iqtisadi artımın sürətlənməsi və gəlirlərimizin artması cari ildə də bu müsbət meyillərin davam etməsi üçün əsaslı gözləntiləri formalaşdırıb. Bu gözləntilər ötən yanvar-fevral aylarında özünü tam doğruldub, cari ilin birinci rübü üzrə dövlət büdcəsinin mədaxil göstəriciləri artıqlaması ilə yerinə yetirilib. Müşavirədə qeyd edildiyi kimi, İqtisadiyyat Nazirliyinin Dövlət Vergi Xidmətinin xətti ilə 2 milyard 40 milyon manat - proqnoz göstəricisindən 221 milyon manat və ya 12,2 faiz çox vergi və rüsumlar yığılıb, Dövlət Gömrük Komitəsinin xətti ilə 991 milyon manat - proqnoz göstəricisindən 91 milyon manat və ya 10,1 faiz çox gömrük rüsumları və idxal vergisi təmin edilib.

Ümumilikdə, dövlət büdcəsinin 2020-ci ilin birinci rübündəki gəlirləri 5 milyard 748 milyon manat proqnoza qarşı 35,9 faiz və ya 2 milyard 63 milyon manat artıq icra olunaraq 7 milyard 811 milyon manat təşkil edib. Dövlət büdcəsinin xərcləri isə 5 milyard 255 milyon manat məbləğində və ya proqnoza qarşı 100,8 faiz icra olunub. Nəticədə dövlət büdcəsində 2 milyard 556 milyon manat profisit yaranıb. Bu dövrdə qeyri-neft ümumi daxili məhsulunun 3,5 faiz səviyyəsində artımına nail olmuşuq. Qeyri-neft sənayesində artım 23 faiz təşkil edib. İnformasiya-kommunikasiya texnologiyaları sahəsində 18 faiz, dağ-mədən sənayesində 12 faiz, kənd təsərrüfatı sahəsində 3,7 faiz artım olub.

Əlbəttə, koronavirus problemi yaranmasaydı, ölkəmiz daha böyük nəticələr əldə edə bilərdi. Şübhəsiz ki, bu çətin günlər tezliklə arxada qalacaq və Azərbaycan sürətli inkişafını davam etdirəcək.

Bütövlükdə, cənab Prezident müşavirədə bir çox məsələlərə toxundu, beynəlxalq aləmdə baş verən məsələlərə münasibət bildirdi. Eləcə də ölkəmizdə siyasi dialoqun əhəmiyyətini vurğuladı. Dövlətimizin başçısı həmçinin antimilli qüvvələrin düşmən mövqeyi haqqında da fikirlərini bildirdi. Həqiqətən də belə qüvvələrə cəmiyyətimizdə yer yoxdur, çünki onlar önlər öz dövlətinə və xalqına qarşı mübarizə aparırılar. Azərbaycan xalqı onları siyasi səhnədən birdəfəlik silib.

# "Prezidentiin proqram xarakterli nitqi çox məsələlərə aydınlıq gətirdi"

***"Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində keçirdiyi müşavirədə demək olar ki, bütün məsələlər əhatə olundu, bütün sahələrə, görülən işlərə, qarşıda duran vəzifələrə toxunuldu". Bunu SİA-ya millət vəkili Elman Məmmədov deyib.***

"Cənab Prezidentimiz göstərdi ki, biz birinci rübün xüsusilə ilk iki ayını uğurla, irəliləyişlə başa vurmuşuq və islahatlar davam edib. Ancaq indi məlum koronovirus pandemiyası nəticəsində bütün dünyada olduğu kimi Azərbaycanda da müəyyən məsələlər var ki, onları həll etmək dövlətin bir nömrəli borcuna və vəzifəsinə çevrilib. Bir sözlə, qarşıda duran vəzifələr aydınlaşdırıldı və tapşırıqlar verildi. Ölkə başçısı xüsusilə bir neçə dəfə onu qeyd etdi ki, bizim gördüyümüz bütün işlərin kökündə məqsəd insanımızı bu bəladan qorumaqdır. Cənab Prezidentimiz karantin rejimi dövründə çətinliklərin mövcud olmasını da vurğuladı. Ancaq bunun tez başa çatması üçün qanunlara riayət olunmalıdır. Belə olan təqdirdə biz qalib gələcəyik və karantin rejimi aradan qalxacaq. Əks təqdirdə dövlət, hökumət məcbur olacaq ki, xüsusi karantin rejiminə aid olan tədbirlər daha da sərtləşdirilsin. Dövlət başçısı qeyd etdi ki, bunun sərtləşməsi insanlarımızın xeyrinədir. Çünki insanlarımız bu bəlaya düçar olmasınlar, həyatda qalsınlar və yaşasınlar. Aztəminatlı ailələrlə bağlı, tələbələrimizlə, işsizlərlə, sahibkarlarla bağlı və s. bütün sahələrin hamısına toxunuldu. Hesab edirəm ki, keçirilən bu müşavirədə cənab Prezidentimizin proqram xarakterli nitqi çox məsələlərə aydınlıq gətirdi. Dövlət başçısı eyni zamanda dünya miqyasında tədbirlərə, beynəlxalq aləmdə baş verən məsələlərə, vəziyyətə nəzər saldı"-deyə, millət vəkili fikrini tamamlayıb.



***Ceyhun Rasimoğlu***

# “Tacsız virus” - Əli Kərimlinin siyasi portreti



## Elşən Musayev, Azərbaycan Demokratik Maarifçilik Partiyasının sədri, Milli Məclisin deputatı

Əbülfəz Elçibəyin nəşinin Azərbaycana gətirilmə səhnəsini yəqin çoxları xatırlayır. ANS verirdi reportajı, səhv etmirəmsə. Hava limanından. Gözləmə otağından.

....Kütlə içində hər zaman olduğu kimi yenə ön plana çıxmağı bacaran oğlanın - Əli Kərimlinin divara qısılıb dayanması, kövrək və köməksiz baxışlarla baxması, sanki ən əziz adamını itiribmiş kimi davranması da çox güman diqqətli oxucuların yadındadır.

O ağlayırdı...

Elçibəy haqda diskin tapılmayan vaxtında iftira dolu disklər yazdıran, həmin diskləri çoxaldan, tirajlayan + onları (indi insan hüquq və azadlıqları barədə yekə-yekə danışan) Xədicə vasitəsilə yaydıran və beləcə...bir tək lideri deyil, həm də müəllimi və mənəvi atası olmuş insana kürəyindən bıçaq saplayan adam başqasının deyil, elə məhz həmin Elçibəyin ölümünə ağlayırdı...

***

Əli Kərimlini ilk dəfə yaxından isə 2003-cü il, Prezident seçkiləri ərəfəsində, AzTV-nin studiyasında görmüşəm. 30 nəfər mühafizəçi ilə bərabər. Ağır-ağır, özünə vurğun şəkildə gəldi. Kimsəyə Allahın salamını da vermədi və sonra yön aldı 2000-də baş verən məlum proseslərdən sonra qılıncının altından keçməyə məcbur qaldığı Etibar Məmmədovun yanına. Nəsə söhbətləşdilər. Sonra efirə girdi. Xalqdan səs istədi. 10 gün sonra da kəbin kağızına bənzər anlaşmaya əsasən özü öz əli ilə öz səsini başqasına verdi.

***

Əli Kərimli müxalifətin Kopperfildidir. O siyasətçi olmasa da mükəmməl gözbağlayıcıdır. Yaxından tanıyanlar deyir, adamın gipnoz qabiliyyəti o qədər güclü ki, 10 dəqiqəlik çıxışdan sonra bütün ətrafındakıları müvəqqəti də olsa nazir, komitə sədri, deputat eləməyi bacarır. Və...bu faydasız, uğursuz eyforiya kiminsə telefonuna: “Evə qayıdanda 2 çörək, 10 yumurta, 4 dəstə keşniş, 3 kiloqram kartof al” - mesajı gələnə qədər davam edir. Beləcə bütün ilğımlar itir. İlmələr sökülür. Nazir “hava”sı alınır. Qızıl balığın nağılı bitir. Qayıdılır, AXCP adlı “bermud üçbucağının” həndəvərinə.

Əli Kərimlinin siyasətdəki səsi və ahəngi bizim vaxtımızda uşaqların qamışdan düzəltdiyi tütəyin avazına bənzəyir. Cır. Kövrək. Əldəqayırma.

Əli Kərimli 27 yaşın nostalgiyasından bir türlü çıxa bilmir. O 21-ci əsri görməyib, həmin əsrə adlamayıb. O eynən Şumaxer kimi komastoz, “bitkisəl” həyat yaşayır. O, Braziliyadan sonra dünya çempionu tanımır. O, sədərək ticarət mərkəzinə hələ də “aeroport” deyir. O, latınca yazsa da KİRilcə düşünür. O, keçmiş məhəllə oyunlarından yalnız “ORTADA QALDI”nı yaxşı mənimsəyib, əxz edib...

Əli Kərimli öz müavinlərinin və tərəfdaşlarının gözündə günəşi çeçələ barmağı ilə sağa-sola fırlamağı, çatma qaşları ilə küləyin sürətini tənzimləməyi, divarda düz gəzməyi, tük yandırıb cin çağırmağı bacaran personajdır, hətta “Mister Fix”dir, “Hörümçək adam”dır. Əslində və reallıqda isə Tıqtıq xanımın şəninə qısa qol köynəklə tar çalan siçan bəydən ötəsi deyil...

Əli Kərimlidə komanda ruhu yoxdur. O bir elə oynamağı bacarmır. O, yoldaşı boş və yüz faizlik qol vəziyyətində ikən yenə ötürmə etmir, qapıya doğru həmişə qısqanc hücumçulartək özü tək gedir.

Onun eqosu məğlubiyyətini şərtləndirən əsas amildir. Onun təkəbbürü qartmaq bağlayıb. Hisslərinin üzərində. Bu səbəbdən görmür, duymur, eşitmir. Nə zərurəti, nə ədaləti, nə də ona təmənnasız xidmət edən əqidə dostlarını. Zatən görsəydi İbrahim Vəliyev, Fuad Mustafayev kimi sadiq insanlar ondan uzaq və küskün düşməzdi. Üstəlik, bu gün Seymurların, restoran kabinetlərində ad çıxaran və “homo sapiens” tipinə fotoşopdan sonra da yaxın dura bilməyən Qənimətlərin, xəyanətin əsasnaməsini yazan “Gülçatay”ların, qrant meşələrindən canlı reportajlar verən “Seva”ların ümidinə qalmazdı.

Əli Kərimli, öz oyununa alət etdiyi, xüsusi təlimatla Gürcüstana göndərdiyi Ruslan Bəşirlinin 6 il, 7 aylıq həbsini təriflə, azadlığını isə təhqirlə qarşılayan bir “lider”dir. Nə var-nə var, əfv ərizəsi yazıb deyə. Artıq AXCP üzvü deyil deyə. Bundan belə onun əmrlərinə tabe olmayacaq deyə. Əli Kərimlinin “sağ ol”u, təşəkkürü, minnətdarlığı bax budur. Onun dost və tərəfdaşı qorumaq üsulu belədir. Oysa, siyasət adamdan bəzən...həm də vəfa borcuna, Tanrı qorxusuna sığınmağı istər. Vicdanlı olmağı deyil, sadəcə vicdansız olmamağı istər. Əl tutulacaq yerdə sadəcə ayaq basdalamamağı istər.

Əli Kərimli bütün mövcud problemlərə nərdivan gözü ilə baxır. Üzərinə çıxıb boylanmaq və yekə görünmək üçün. Həmin problemlərin fonunda öz populizminə yeni nəfəs vermək üçün. Ona görə yırtıcı siyasətə bu qədər meyllidir. Ona görə qan çıxmayan yerdən filiz çıxarmağı bacarır. Ona görə qanun pozanlar, həbs edilənlər, ləlkli radikallar başının tacıdır. Ona görə Sevinc bacısı ilə bərabər baş-başa imkanı olmasa da göz-gözə qucaqlaşıb ağlamağı nəyəsə sevinməkdən, dövlət və millət adına xoş bir məqama nəzər yetirməkdən daha lazımlı və önəmli sanır. Ona görə koronavirusdan sağalanlar umurunda belə deyil, amma ölənlər arzularının, xəyallarının giriş qapısındadır. Ona görə İlham Əliyevin Paşinyanı diz çökdürdüyü debata qarşı susqundur, amma həmin Paşinyanın Dağlıq Qarabağa etdiyi səfəri az qalır öz “facebook” səhifəsindən canlı yayımlasın. Əli Kərimli virusdur. Sadəcə tacsız virus. Və şükür, epidemiya halına keçməyib. 30 ildir, seçkidən-seçkiyə ressidiv forma alır, sonra dayanır. O, insanları hava-damcı yolu ilə deyil, internet üzərindən yoluxdurur. Etiologiyası, mənşəyi tibb elminə hələ məlum deyil. Peyvəndi yoxdur. Müalicəsində əsasən göbələk əleyhinə dərmanlardan istifadə olunur. İlkin əlaməti qaşınmadır. Amma...əgər bədəndə radikalizmə, səviyyəsizliyə, nadanlığa qarşı antitel varsa, siyasi immunitet formalaşıbsa, o zaman qətiyyən qorxmağa və narahat olmağa dəyməz. Demək ki, siz bu bəladan bir ömür boyunca uzaq olacaqsınız...

***

Kərimli bir dəfə hansısa məclisdə deyibmiş ki, gün gələcək Azərbaycanın Mandelası kimi hansısa filmdə mənim obrazım canlanacaq. Qaraguruh da bu fikri ayaq üstə alqışlayıbmış.

Oysa, eşit bəy. Gör nə deyirəm. Səni ən yaxşı halda canlandırsalar - inan, o da ən yaxşı halda - Mandelanın bağındakı Mandarin obrazında canlandırarlar.

Vəssalam. Bundan artığına ümid eləmə.

## “Hraparak”: Paşinyanın aşpazı koronavirusa yoluxub



Ermənistanın “Hraparak” qəzeti qeyd edir ki, hökumət bağlarında, o cümlədən Nikol Paşinyanın bağında aşpaz işləmiş Xaçatur Barseqyan koronavirusa yoluxub və müalicəyə cəlb edilib. SİA erməni nəşrinə istinadən xəbər verir ki, ondan bir ay əvvəl alınan test müsbət çıxmışdı. “Təqribən 20 gün buna qədər o, infeksiyanın yayılması ocağı olan Razdandakı toy məclisində iştirak edib”, yazan nəşr həmçinin qeyd edir ki, həmin mərasimdə 300 nəfər qonaq olub: “Bundan sonra Marmarik kəndi bütünlüklə özünüizolə edib. Ötən gün qəzet əməkdaşları səhiyyə nazirinə ardıcıl zənglər edib, məsələni daha da dəqiqləşdirməyə çalışıblar. Lakin onlar zənglərə cavab verməyiblər”

## “Bu “seçkilər” qurama oyundan başqa bir şey deyil”



Xarici İşlər Nazirliyi (XİN) Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsində keçirilən qondarma “seçkilərin” ikinci turuna münasibət bildirib. SİA xəbər verir ki, XİN-in Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva bildirib ki, Azərbaycan Respublikasının Ermənistan Respublikası tərəfindən işğal olunmuş Dağlıq Qarabağ bölgəsində işğalçı ölkə tərəfindən keçirilən qanunsuz “seçkilər” ilə bağlı AR XİN-in mövqeyi bu ilin 31 mart tarixində ifadə edilib.

“Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev aprelin 14-də keçirilən 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində müşavirədə bu məsələyə münasibət bildirərək qeyd etdi ki, “bu “seçkilər” bir daha göstərdi ki, bu qanunsuz xunta rejimini heç kim tanımır”. Bir daha vurğulayırıq ki, işğalçı ölkənin təşkil etdiyi bu “seçkilər”, neçənci mərhələsinin keçirilməsindən asılı olmayaraq, hər hansı hüquqi qüvvəsi olmayan və qurama oyundan başqa bir şey deyildir.

Ölkəmizin müvəqqəti işğal altında olan Dağlıq Qarabağ bölgəsindəki bu qanunsuz aktla bağlı beynəlxalq ictimaiyyətin birmənalı mövqeyinə bir daha istinad edərək, qondarma “seçkilər” və onların nəticələrinin çoxsaylı beynəlxalq təşkilat və dövlətlər tərəfindən rədd edildiyini xatırlatmaq istərdim. Qondarma “seçkilər” ilə bağlı beynəlxalq ictimaiyyətin üzvləri tərəfindən hələ də bəyanatlar verilməkdə davam edir və bu xüsusda, Azərbaycanın beynəlxalq tanınmış sərhədləri çərçivəsində suverenliyi və ərazi bütövlüyünə dəstək ifadə olunur. Azərbaycan ərazisində seçkilər ölkəmizin Konstitusiyasına uyğun olaraq keçirilir və konkret olaraq ölkəmizin Dağlıq Qarabağ bölgəsində seçkilər hərbi işğal amili aradan qaldırıldıqdan sonra və bölgənin hər iki icmasının iştirakı ilə baş tuta bilər. Bu məsələdə hər hansı əlavə şərhə ehtiyac duyulduğunu zənn etmirəm”, - deyə XİN rəsmisi vurğulayıb.

## Gürcüstan qondarma “prezident seçkiləri”nin nəticələrini tanımır



Gürcüstan işğal olunmuş Dağlıq Qarabağda keçirilmiş qondarma “prezident seçkiləri”ni tanımır. SİA-ya bu barədə Gürcüstan Xarici İşlər Nazirliyinə istinadən məlumat verir. Məlumatda qeyd olunur ki, Gürcüstan Dağlıq Qarabağın qondarma “müstəqilliyi”ni tanımır və Azərbaycanın bu bölgəsində keçirilmiş qondarma “prezident seçkiləri”nin ikinci mərhələsini də qəbul etmir: “Gürcüstan Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazi bütövlüyünü və suverenliyini dəstəkləyir və münaqişənin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, sülh yolu ilə həllinə tərəfdardır”.

Qeyd edək ki, martın 31-də Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan ərazisində - Dağlıq Qarabağda qondarma rejim tərəfindən “prezident və parlament” seçkiləri keçirilib. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi 1988-ci ildə ermənilərin Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları və etnik zəmində təxribatları ilə başladı. 1991-ci ilin sonlarında Ermənistan hərbi qüvvələri Azərbaycan sərhədlərini pozub Qarabağa daxil oldular. Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan Respublikasının 20 faiz ərazisi - Dağlıq Qarabağ regionu və ona bitişik yeddi rayon - Xankəndi şəhəri, Xocalı, Şuşa, Laçın, Xocavənd, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan rayonları, həmçinin Tərtər rayonunun 13, Qazax rayonunun 7, Naxçıvanın Sədərək rayonunun isə 1 kəndi Ermənistan ordusu tərəfindən işğal olundu.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində 1 milyondan artıq azərbaycanlı məcburi köçkün vəziyyətinə düşüb, 25 mindən çox insan hərbi əməliyyatlar dövründə həlak olub, 50 min nəfər əlil olub. Münaqişə nəticəsində 4 minə yaxın azərbaycanlı itkin düşüb, onların arasında 67 uşaq, 265 qadın, 326 qoca olub. Bu şəxslərin aqibəti barədə hələ də məlumat yoxdur. İki mindən çox azərbaycanlı ermənilər tərəfindən əsir və girov götürülüb.

# Dağlıq Qarabağın Azərbaycanlı icmasının rəhbəri bəyanat yayıb

***Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin Azərbaycan icmasının rəhbəri Tural Gəncəliyev bəyanat yayıb. İcmadan SİA-ya verilən məlumata görə, bəyanatda deyilir: "Hazırda dünyanın üzləşdiyi ən böyük problem sərhəd tanımayan koronavirus pandemiyasıdır. Azərbaycan Respublikası tərəfindən vətəndaşların sağlamlığını və təhlükəsizliyini təmin etmək, onları pandemiyanın yaratdığı sosial-iqtisadi fəsadlardan qorumaq üçün zəruri və qabaqlayıcı addımlar atılır.***

Ölkə üzrə 22 xəstəxana koronavirus xəstələrinin müalicəsi üçün ayrılmışdır. Mart ayında Azərbaycanın regionlarında, Goranboy, Qazax və Şəmkir şəhərlərində 3 yeni xəstəxana açılmışdır. Bakıda yeni istifadəyə verilmiş 575 çarpayılıq "Yeni klinika" koronavirus xəstələrinin müəlicəsi üçün nəzərdə tutulub. Azərbaycanda koronavirus xəstələrinin müayinəsi üçün 70 000-dən artıq test aparılıb.

600 000-dən artıq insanı əhatə edən iqtisadi, makroiqtisadi və məşğulluq problemlərinin həlli üçün dövlət dəstək proqramlarının maliyyə həcmi 2,5 milyard manatdır. Qeyd olunanlar Azərbaycanda həyata keçirilən dövlətin dəstəyinin yalnız bir hissəsidir. Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərində əsir saxladığı Dağlıq Qarabağın erməni icmasının Azərbaycanın həyata keçirdiyi sosial, iqtisadi, səhiyyə və s. layihə və proqramlardan yararlanmasının qarşısını alır.



Belə ki, həftələr öncə Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının işğal olunmuş ərazilərimizdə koronavirus xəstəliyinin yayılması barədə məlumat verməsinə və tərəfimizdən edilən xəbərdarlıqlara rəğmən, 31 mart 2020-ci il tarixində infeksiya halları gizlədilərək Ermənistanın əlaltısı olan rejim tərəfindən qanunsuz "seçki" şousu keçirildi. Bunun ardınca, infeksiyanın yayılmasını Ermənistan etiraf etsə belə, 14 aprel 2020-ci il tarixində yenidən bütün insanların həyatını təhlükəyə ataraq, "seçki" şousunun ikinci turu da təşkil olundu. Bütün bunlar onu göstərir ki, Dağlıq Qarabağda yaşayan sadə ermənilər Ermənistanın çirkin siyasi oyunları üçün alətdir və oradakı insanların həyatı və sağlamlığı Ermənistanı maraqlandırmır.

Ermənistan hakimiyyəti və qondarma rejimin nümayəndələri Qarabağda yaşayan sadə erməni icması üzvlərinin həyatını dəyərsiz sayaraq, onların Azərbaycan vətəndaşları kimi müalicə imkanlarından yararlanmasının qarşısını almaqda davam edir.

Azərbaycan Respublikasının siyasətinin ana xəttini Azərbaycan vətəndaşı və onun maraqlarının qorunması təşkil edir. Bir daha bəyan edirik ki, Ermənistan qoşunları işğal olunmuş ərazilərdən çıxarıldıqdan sonra Dağlıq Qarabağın erməni və azərbaycanlı icmaları Azərbaycan Respublikasının beynəlxalq tanınmış sərhədləri çərçivəsində, sülh şəraitində birgə yaşayacaq və Azərbaycan Respublikasının vətəndaşı olmağın verdiyi imtiyazlardan bərabər hüquqlu şəkildə yararlanacaqlar".

# Ödənişli ictimai iş yerlərindən kimlər və necə yararlana biləcək?

***"Nazirlər Kabinetinin qərarı ilə ölkəmizdə 50 min ödənişli ictimai iş yeri yaradılması ilə bağlı respublikamızın bütün rayon və şəhərləri üzrə bölgü müəyyənləşdirilib. Prosedurla bağlı mexanizmlər artıq müəyyən edilib". SİA-nın xəbərinə görə, bu barədə ƏƏSMN-nin Dövlət Məşğulluq Xidmətinin şöbə müdirinin müavini Fərid Həsənov məlumat verib.***



### Kimlər bu işlərə cəlb ediləcəklər?

O bildirib ki, sözügedən işlərə birdəfəlik ödəmə üçün müraciət etmiş, lakin ödəmə almaq hüququ olmayan şəxslər cəlb ediləcək.

Onun sözlərinə görə, burada əsasən əhalinin həssas qrupları nəzərdə tutulub: "Xüsusilə də məcburi köçkünlərin həmin iş yerlərinə cəlb edilməsi nəzərdə tutulub".

### Yeni yaradılacaq iş yerləri hansı müddəti əhatə edəcək?

F. Həsənov söyləyib ki, 50 min ödənişli ictimai iş yeri yaradılması əsasən aprel və may ayları üçün nəzərdə tutulub: "Əgər karantin müddəti növbəti müddətdə uzadılarsa, o zaman bu işə yenidən baxılacaq və lazım gələrsə ictimai işlərin müddəti uzadılacaq".

### Vətəndaşlar necə müraciət etsin?

Qurum rəsmisi vurğulayıb ki, karantin müddətindən vətəndaşların rayon və şəhərlərdə yerləşən məşğulluq mərkəzlərinə birbaşa müraciət etməsinin mümkünsüzlüyü nəzərə alınaraq, Əmək və Əhalinin Sosial Nazirliyinin mərkəzləşdirilmiş iş elekton informasiya sistemində müvafiq sistemdən qeydiyyatdan keçirək həmin citaimi iş yerlərinə göndəriş ala bilərlər. Eyni zamanda qeyd edim ki həmin sistemdə birdəfəlik yardım üçün müraciət edən lakin müəyyən kriteriyalara görə, həmin yardımı ala bilməyən vətəndaşlarımızla bağlı baza da formalaşıb ki, həmin şəxslərə bu iş yerləri ilə bağlı göndəriş göndəriləcək".

### 50 min ödənişli ictimai iş yeri hansı sahələri əhatə edir?

Dövlət Məşğulluq Xidmətinin şöbə müdirinin müavini qeyd edib ki, ödəniş ictimai iş yerləri ilə bağlı əsas vakansiyalar karantin rejimi ilə bağlı olaraq dezinfeksiya işlərinin aparılması ilə bağlıdır: "Bununla yanaşı, ictimai iş yerlərinə həm ahıl yaşlı həm də digər insanlara sosial xidmətlərin göstərilməsi daxildir. İşə qəbul olunan şəxslərlə müddətli əmək müqaviləsi bağlanacaq və respublika üzrə minimum əmək haqqı 250 manat məbləğində ödəniş ediləcək".

*Nailə Məhərrəmova*

# "2020-ci ilin uğurla başlamasına səbəb islahatların davamlı şəkildə aparılmasıdır"



***"Prezident İlham Əliyevin videokonfrans rejimində ilin birinci rübünün yekunlarına həsr edilmiş müşavirədə vurğuladığı fikirlər və önə sürdüyü hər bir tezis ilk növbədə sübut edir ki, dövlət hər zaman öz vətəndaşının yanındadır və bu gerçəklik aparılan siyasətdə özünü kifayət qədər sübuta yetirib". Bu fikirləri SİA-ya millət vəkili Məşhur Məmmədov sözügedən mövzunu şərh edərkən deyib.***

Onun sözlərinə görə, Prezident İlham Əliyev çıxışında ilin birinci rübünün yekunlarından danışarkən ilk növbədə vurğulayıb ki, 2020-ci il uğurla başlayıb və bunun əsas tərəfi islahatların davamlı şəkildə aparılmasıdır: "Təkcə cari il başlayandan hazırkı dövrə qədər dövlətimizin başçısı tərəfindən xalqın sosial-rifah halının yaxşılaşdırılması, sosial yönümlü layihələrin icrası, eləcə də regional və beynəlxalq müstəvidə atdığı hər bir addım, verdiyi hər bir qərar münbit nəticələrini göstərməkdədir. Bu baxımdan, ilin birinci rübünün yekunlarının müzakirəsi zamanı ölkə liderimiz vurğuladı ki, ilin əvvəlinin göstəriciləri Azərbaycanda islahatların davam etdirilməsinin bariz sübutudur. Çünki əldə edilən nəticələr də həmin reallığı əks etdirməkdədir".

"Bu mövzunu tam şərh etməmişdən öncə, mən daha bir vacib məsələyə toxunmaq istərdim", deyən Məşhur Məmmədov qeyd edib ki, Prezident İlham Əliyevin sosial xidmət əməkdaşlarının sosial-rifah hallarının daha da yaxşılaşdırılması üçün imzaladığı Sərəncam qeyd edilən fikirlərin davamıdır: "O cümlədən, dövlətimizin başçısı bu günümüzün qəhrəmanlarına çevrilmiş səhiyyə işçilərinin də sosial təminatlarının daha da yaxşılaşdırılması üçün müvafiq Sərəncamı imzalayıb. O cümlədən, koronavirusun dünyada tüğyan etdiyi bir dönəmdə sosial təminata ehtiyacı olan ailələrə də birdəfəlik 190 manat vəsaitin ödənilməsi qərarı Azərbaycan dövlətinin daim xalqının xidmətində dayanması faktorunu ehtiva etməkdədir".

Deputat bildirib ki, bu gün bəşəriyyət çətin sınaq qarşısındadır və hətta ən güclü dövlətlər koronavirus pandemiyası ilə mübarizədə çətinlik çəkirlər: "Bu baxımdan, müəyyən iqtisadi çətinliklər də yaranır ki, həmin məsələ anlaşılandır. Dövlət başçımız müşavirə zamanı qeyd etdi ki, dünya ölkələri ilə yanaşı, Azərbaycan da müəyyən geriləmələr oldu ki, bu da təbiidir. Artıq bəllidir ki, koronavirus həqiqətən də bütün dünya üçün böyük bəladır və dünya iqtisadiyyatı üçün böyük problemlər yaradır. Amma buna baxmayaraq, ölkəmiz qarşıya qoyulan sosial yönümlü layihələrin icrasını davam etdirdi ki, bu gün Azərbaycan nümunə olan ölkələr sırasında ilkin yerlərdən birini tutmaqdadır. Bu baxımdan da, əminliklə deyə bilərik ki, inkişaf və tərəqqi amili davam edir və qarşıya qoyulan hədəflərə çatmaq üçün proqramlar həyata keçirilir".

Deputat hesab edir ki, bütün qeyd olunanlarla yanaşı, Azərbaycan dövləti beynəlxalq müstəvidə də öz sözünü deyir, öncüllük prinsipindən çıxış edərək, mövcud vəziyyətdən çıxış yollarını arayır, tövsiyələr, təkliflər və ideyalarla çıxış edir: "Bir neçə gün əvvəl məhz Prezident İlham Əliyev cənablarının çağırışı əsasında Türk Dövlətləri Şurasının video-konfransı baş tutdu. Dünyada cərəyan edən COVID-19 epidemiyasının qarşısının qısa müddətdə alınması istiqamətində fikir mübadilələri aparıldı, qərarlar qəbul olundu. O cümlədən, Şuraya üzv ölkələrlə iqtisadi münasibətlərin davamlılığı istiqamətində bir sıra mühüm bəyanatlar səsləndirildi. Bütün bunlar əlbəttə ki, bizləri fərəhləndirən amillərdir ki, Azərbaycan dövləti istər regionda, istərsə də dünyada söz sahibi qismində çıxış edir".

Məşhur Məmmədov sonda vurğulayıb ki, xalqımız tarixlər boyu bir çox çətin sınaqlardan çıxıb və bu sınaqdan da üzüağ çıxacağına kimsə şübhə edə bilməz: "Çünki ölkəmizdə ilk növbədə xalq-iqtidar birliyi mövcuddur. Hakimiyyətin verdiyi hər bir qərar bilavasitə xalqın qayğısına qalmaq üçün hesablanıb. Təəssüf ki, bu gün özlərini müxalifət lideri adlandıran bir qrup marginallaşmış "beşinci kolon" ünsürləri xalqın birliyini həzm edə bilmirlər. Bu, ondan irəli gələn haldır ki, belələri Azərbaycanın inkişafını istəməyən və erməni lobbisinin təsirləri altında fəaliyyət göstərən xarici qurumların qarşısında xəyanətkarlıq öhdəlikləri götürürlər. Qrantlar, maliyyələr qarşılığında düşmənçilik toxumları səpməyə çalışırlar. Ancaq göründüyü kimi, bütün bunlar alınmır. Çünki bayaq da qeyd etdiyim kimi, xalq-iqtidar birliyi, sarsılmazlığı bu cür mənfur qüvvələrin ayaq açıb yerimələrinə heç vaxt imkan verməyib, bundan sonra da verməyəcək. Bu gün qədirbilən xalqımız Prezident İlham Əliyev cənablarının ətrafında sıx birləşib və Onun verdiyi qərarları alqışlayır. Düşünürəm və inanıram ki, ölkəmiz qısa zaman kəsimində koronavirusla mübarizədə qalib tərəf olaraq ayrılmaqla yanaşı, həm də qarşıdakı növbəti zamanlarda ardıcıl sosial-iqtisadi zəfərlərin də şahidlərinə çevriləcək".

*Rəfiqə HÜSEYNOVA*

# “Radikal müxalifəti bədxahlar idarə edir”

**“Son vaxtlar AXCP sədri Əli Kərimli və trolları Azərbaycanın xalqını sevən, dövlətinə bağlı olan şəxsləri və dövlətçilik maraqlarını daha geniş şəkildə təhqir etməyə başlayıblar. Koronavirus epedemiyasının geniş fürsət aldığı belə bir ağır, çətin bir məqamda Ə.Kərimlinin və trollarının bu cür təhqiredici şər və böhtan xarakterli metodlardan istifadə etmələri onların xarici maraqlı dairələrdən sərt tapşırıqlar aldıqlarını göstərir”. Bunu “Səs” qəzetinə açıqlamasında millət vəkili Azər Badamov deyib.**



Millət vəkili bildirib ki, bütün dünyanı koronavirus pandemiyası ağuşuna almaqla hətta müharibələr, inqilablar də dünyanın siyasi gündəmindən uzaqlaşıb: “Bu ağır zamanda dünya ölkələrində bütün siyasi qüvvələr, müxalifət və ya iqtidar olmasından asılı olmayaq dövlətçilik və vətəndaşların sağlamlıqlarını hər şeydən üstün tutaraq pandemiyaya mübarizəyə cəlb olunub. Bu gün dünyanın gündəmində yeganə bir problem, koronovirusla mübarizə mövzusu dayanır. Təbii ki, Azərbaycan da dünyanın bir parçasıdır və dövlətimiz Prezident İlham Əliyevin tapşırıqları və rəhbərliyi altında bu ümumi bəşəri bəlaya qarşı effektiv mübarizə aparır və ÜST-ü da bizi nümunə kimi dünyaya təqdim edir. Burda bir sual meydana çıxır: Azərbaycan vətəndaşlarının sağlamlığına, dövlətçiliyinə, müstəqilliyinə kimlər sevinir? Birmənalı şəkildə qeyd etmək olar ki, ölkənin gələcəyini düşündürən ölkə vətəndaşları və bizə hörmətlə yanaşan dost ölkələr. Yenə bir sual olunur: Bütün dünya və özünü Azərbaycanlı adlandıranların hamısı xalqımızı və dövlətimizi sevirmi? Təbii ki, yox”. Millət vəkilinin sözlərinə görə, bu gün Azərbaycanı istəməyən, müstəqilliyini əlindən almaq istəyən, ölkəni parçalamaq istəyən, xalqına düşmən və bundan xeyir qazanmaq istəyən qüvvələr kifayət qədər çoxdur: “Dövlət başçımız da qeyd edir ki, bizə konstruktiv müxalifət lazımdır. Belə müxalifət dövlətə, xalqına yox, siyasi hakimiyyətə qarşı olmalıdır. Eyiblərini və çatışmamazlıqlarını ifadə etməli, iqtidardan daha səmərəli və ölkənin işıqlı gələcəyinə hesablanmış planlarını təqdim etməlidir. Bu gün siyasi hakimiyyətin apardığı siyasi islahatların kökündə də bu məqsəd dayanır. Siyasi partiyaların rəhbərləri ilə dialoq, parlamentdə təmsil olunan müxalif partiyaların nümayəndələrinin Milli Məclisin və komitələrin rəhbərliyində təmsil olunmaları da yeni bir dövrə qədəm qoyduğumuzun göstəricisidir: Yenə bir sual olunur. Bizdə dəyişilməyən nədir? Təbii ki, buna bir cavab var: Bu, Əli Kərimli və onun ətrafıdır. Ə.Kərimli və ətrafında olanlar 28 ilə yaxın bir dövrdür ki, dəyişilmir, inkişaf etmir, yenilik ortaya qoya bilmir, tutduğu yoldan çəkilmir və “5-ci kalona” xidmətini davam etdirir. Birinci, onu qeyd etmək istəyirəm ki, xalqını sevən heç kim dünyada pandemiya ilə mübarizədə məhdudiyyətlər tətbiq olunduğu bir zamanda, dövlətimiz bütün gücünü bu mübarizəyə səfərbər etdiyi bir dövrdə, insanların canlı təmasını minimuma endirməyə başladığı bir vaxta xalqa küçələrə çıxmaq çağırışı etmək ən azından öz xalqına qarşı düşmənçilik hesab edirəm. Xaricdə yaşayan trolları işə salaraq Azərbaycanın atributlarını, dövlətçilik maraqlarını təhqir etmək özünə həyat amalını seçmək ölkənin müstəqilliyinə düşmən olmaq deməkdir. Bu, “5 kalon”un nümayəndələri ölkəmiz üçün həssas vaxtlarda aktivləşmək sanki özlərinə məqsəd qoyublar. 2003-cü il Prezident seçkiləri ərəfəsində, 2011-ci il “Ərəb baharı” dövründə, 2013-cü il prezident seçkiləri ərəfəsində, indi isə koronavirus pandemiyası dövründə öz çirkin niyyətlərini ifadə etməklərində yeganə məqsədi Azərbaycan xalqını və dövlətini məhv etmək istəklərindən ayrı bir şey hesab etmirəm. Bu sülaləni təmsil edənlər birmənalı şəkildə dərk etməlidirlər ki, Azərbaycanda xalq-iqtidar birliyi sarsılmazdır. “5-ci kalon”un nümayəndələrinə demək istəyirəm ki, Prezident var-gücü ilə öz xalqının sağlamlığına, ölkənin müstəqilliyinin möhkəmlənməsinə və inkişafına çalışır. Artıq reallığı dəyərləndirməyin zamanıdır”.

***Gülyana***

# “Kölgə iqtisadiyyatının aradan qaldırılması ciddi tədbirlərin nəticəsidir”

***“Əsas gəlir mənbələri sırasında qeyri-neft sektorunun payı, şəffaflığın artırılması, vergilərdən yığılmalar və Dövlət Gömrük Komitəsindən daxil olan gəlirlər vəsaitin əsas hissəsini təşkil edir”. Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin Gənclər və idman komitəsinin üzvü Cavid Osmanov 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfransda Prezident İlham Əliyevin toxunduğu məsələlərlə bağlı danışarkən deyib.***



O bildirib ki, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə birinci rübün yekunlarına həsr olunmuş müşavirədə ölkə rəhbəri geniş nitq söylədi və vurğuladı ki, dünyada baş verən koronavirus pandemiyasından Azərbaycan iqtisadiyyatı da təbii ki, zərər görür lakin, vaxtında atılmış addımlar nəticəsində ölkəmizin bu vəziyyətdən daha az zərərlə çıxması bu gün göz qabağındadır: “Dünyanın ən inkişaf etmiş ölkələri dövlət rəhbərimizin tapşırığı ilə atılan addımları ölkələrində tətbiq edirlər. Çünki bunun effektini artıq Azərbaycan görüb. Təbii ki, Prezidentimiz bir daha vurğuladı ki, pandemiya dünya iqtisadiyyatına çox mənfi təsir edir, Azərbaycan da dünyanın bir parçası kimi bütün bunlardan sığortalanmayıb. Atılan addımlar bunu göstərir ki, Azərbaycan daha az itki ilə bu koronavirus pandemiyasından çıxacaq. İlk növbədə söhbət insan təlafatından və ölkə iqtisadiyyatından gedir. Ölkə Prezidenti də vurğuladı ki, ötən il dövlət büdcəsinə 1 milyard manat əlavə gəlir daxil olub, bu il isə təkcə birinci rübdə 300 milyon manata yaxın əlavə gəlir daxil olub”.

Millət vəkili vurğulayıb ki, ölkə Prezidenti 2018-ci ilin aprel ayının 11-də keçirilən Prezident Seçkilərindən sonra andiçmə mərasimində verdiyi anonsunda, burada kadır islahatlarından, struktur islahatlarından və bütün sahələrdəki mövcud islahatlardan söhbət gedirdi və bunun effektinin artıq ötən ildən bu yana göründüyünü Prezident vurğuladı: “Qeyd edək ki, əsas gəlir mənbələri sırasında qeyri-neft sektorunun payı, şəffaflığın artırılması, vergilərdən yığılmalar və Dövlət Gömrük Komitəsindən daxil olan gəlirlər vəsaitin əsas hissəsini təşkil edir. Həm kölgə iqtisadiyyatının aradan qaldırılması, həm də iqtisadiyyatın daha geniş sahələrinin əhatə olunması, ölkəmizdə bir neçə bölgələrdə sənaye və kimya parklarının salınması da bir daha bu istiqamətdə atılmış ciddi tədbirlərin nəticəsidir”.

***Nigar Məmmədova***

# “Dünyada yeni iqtisadi düzənin qurulmasından söhbət gedir”



“Qlobal beynəlxalq oyunçuları düşündürən ən əsas məsələ dünyanın bundan sonrakı yeni iqtisadi trayektoriyasının hansı isqtiqamətdə inkişaf edəcəyidir”. Bu sözləri SİA-ya açıqlamasında Prezident yanında Dövlət İdarəçilik Akademiyasının müəllimi, Bakı Politoloqlar Klubunun sədri Zaur Məmmədov pandemiya ilə mübarizə dövründə dünyada gedən siyasi proseslərdən və siyasi münaqişərin indiki vəziyyətindən danışarkən deyib.

Onun sözlərinə görə, koronavirusla mübarizə dövründə dünyadakı siyasi proseslər bir növ dayanıb: “Bunun də ən əsas səbəbi ondan ibarətdir ki, bu gün beynəlxalq aləm münaqişələri kənara atıb biri-birilərinə olan siyasi münaqişələri kənara qoyub onları düşündürən və təbii ki, dünyanın əsas problemi olan koronavirusa qarşı mübarizəyə köklənmək istəyir. Koronavirus pandemiyası təkcə sağlamlığın itirilməsi məsələsi deyil, koronavirus eyni zamanda iqtisadi və sosial bəladır ki, dünyanın yeni iqtisadi və sosial düzəninin də qurulmasında da söhbət gedir. Belə olan təqdirdə təbii ki, qlobal beynəlxalq oyunçuları düşündürən ən əsas məsələ dünyanın bundan sonrakı yeni iqtisadi trayektoriyasının hansı isqtiqamətdə inkişaf edəcəyidir.

Bununla bağlı xüsusilə də Çin və ABŞ arasında, eyni zamanda Avropa İttifaqı arasında fikir ayrılıqları var, görünən odur ki, onların arxasında olan ayrı-ayrı qlobal qruplar öz maraqlarını reallaşdırmaq üçün bütün bu oyunlara getmiş olublar”.

Siyasi ekspertin fikrincə dünya və bəşəriyyət bu mərhələni təbii ki, uğurla geridə qoyacaq: “Düşünürəm ki, bəşəriyyət bu mərhələni arxada qoyacaq və dünya öz axarı ilə irəliləməyə yenidən davam edəcək. Bildiyiniz kimi regionda da münaqişə ocağı vardır ki, Ermənistanın provokasiyalarını hətta, koronavirus dövründə də müşahidə edirik. Təəsüflər olsun ki, bizim qonşumuz olan Ermənistan dövlətinin ayrı-ayrı liderləri bu illər boyu öz qeyri-konstruktiv siyasətlərindən və böyük Ermənistan xülyasından əl çəkməyiblər”.

***Nigar Məmmədova***

# “Çox şey vətəndaşlarımızın məsuliyyətli davranışından asılıdır”



Aprelin 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində müşavirə keçirilib. Məsələ ilə bağlı SİA-ya açıqlama verən millət vəkili Musa Qasımlı bunları deyib: “Cənab Prezidentimiz İlham Əliyevin videokonfrans vasitəsilə keçirdiyi müşavirəyə baxdım və nitqini diqqətlə izlədim. 2020-ci ilin birinci rübündə ölkəmizdə islahatlar dərinləşdirilib və bütün sahələrdə inkişaf olub. Dünyada yaranan lakin, ziyanı bizə də dəyən koronovirus pandemiyasına qarşı mübarizədə Azərbaycan hakimiyyəti digər ölkələrə nümunə ola biləcək önləyici addımlar atıb. Karantin rejimi tətbiq edilib, ölkədə sosial baxımdan həssas təbəqələrə yardımlar edilib, Koronovirusla Mübarizəyə Dəstək Fondu yaradılıb və bu Fonda vəsaitlər köçürülüb. Hesab edirəm ki, cənab Prezidentimizin rəhbərliyi altında Azərbaycan hakimiyyətinin koronovirus pandemiyasına qarşı gördüyü tədbirlər ilk növbədə millətimizin sağlamlığının qorunmasına yönəlib. Bir məsələni xüsusi vurğulamaq lazımdır ki, bu pandemiyanın yayıldığı bir zamanda ölkəmizdə bir neçə müəssisə cənab Prezidentimiz tərəfindən açıldı. Düşünürəm ki, biz bu vəziyyətdə az itki ilə çıxacayıq. Dövlətimiz özündən asılı olan hər şeyi edir amma çox şey vətəndaşlarımızın məsuliyyətli davranışından asılıdır”.

## Koronavirus necə ortaya çıxdı? ABŞ generalından ŞOK açiqlama



ABŞ Ordusunun Baş Qərargah rəisi general Mark Milley yeni növ koronavirusun (Covid-19) laboratoriya şəraitində yaradıldığı ilə bağlı iddialara şərik olduğunu bildirib. SİA bunu xarici KİV-lərə istinadən xəbər verir.

General ehtimalın yüksək olduğunu bildirsə də, dəqiq nəticəyə gələ bilmədiyini və hər iki ehtimalın da qeyri-müəyyən olduğunu söyləyib. General Milley müdafiə naziri Mark Esper ilə ortaq mətbuat konfransında iddialarla bağlı qeydlərində medianın və blogerlərin “rolunu” da qeyd edib: “Mediada, blog saytlarında çoxlu sayda dedi-qodu və fərziyyələr var. Kəşfiyyat bu iddiaları ciddi şəkildə araşdırdı. Bu mərhələdə bu iddialar etibarlı deyil. Bunun təbii olduğuna dair bəzi dəlillər var. Ancaq yenə də buna əmin ola bilmərik”.

# Neftin qiyməti necə olacaq?

***Pandemiyanın bütün dünyanı öz təsiri altına aldığı bir zamanda neftin qiymətlərində bu qədər enmə elə pandemiyanın özü qədər dünyanı narahat edən məsələyə çevrilib. Çünki, dünyanın superdövlətlərindən tutmuş ən xırda neft hasil edən ölkələrinə qədər belə bir şəraitdə ən vacib və maraqlı məsələlərdən biri elə neftin qiymətidir. Mövcud şəraitdə ən aktual məsələnin məhz qiymət olduğu özünü OPEC+ ölkələrinin razılaşmasında daha qabarıq şəkildə göstərdi.***



Sual doğuran məqamlar çoxdur. Təkcə ayrı-ayrı ölkələrin deyil, bütövlükdə dünya iqtisadiyyatı özü belə hal-hazırda suallar qarşısındadır. Çünki, mövcud pandemiyanın fonunda bir də neftin ucuzlaşması heç də dünya dövlətləri, ələlxüsus neft hasil edən ölkələr üçün arzuolunan deyil. İndi OPEC+ ölkələrinin razılaşmasından sonra ən böyük sual odur ki, görəsən neftin qiyməti yenidən bahalaşacaqmı?

Neftin qiymətinin bahalaşacağı, yaxud bahalaşmayacağı barədə kəskin şəkildə fikir söyləmək olmaz. Amma ucuzlaşmanın ola biləcəyi kimi, bahalaşmanın da mümkünlüyünü heç cür təkzib etmək olmaz. Çünki, dünya ictimaiyyəti hər iki halın dəfələrlə şahidi olub. Özü də bu hallar gözlənilmədən və proqnozlaşdırılmadan baş verib. Deyək ki, pandemiya ilə əlaqədar ucuzlaşmanı bəlkə də proqnozlaşdıranlar olub. Lakin, ABŞ-İran münasibətlərindəki gərginliyin fonunda neftin qiymətlərinin bahalaşacağı heç kimin ağlına belə gəlməzdi və hər kəs bunun əyani şahidi oldu. Özü də ən yaxın keçmişdə şahidi oldu və qiymətlərin artımından təəccübünü çoxları gizlətmədi də.

Bəlkə də bu arada, yəni, dünyanın başının məlum xəstəliyə, koronavirus adlı bəlaya qarışdığı zamanda qiymətlərin bahalaşacağı barədə mülahizələr absurd səslənə bilər. Ümumiyyətlə, bu məsələyə skeptik və aqressiv yanaşanlar da tapılar və iddia edərlər ki, indi planetimiz xəstəliklə mübarizə aparır, neftin qiymətinin qalxması və enməsi ilə yox. Amma hər kəs etirqaf etmək məcburiyyətindədir ki, çox da uzaq keçmişdə deyil, əsrin əvvəllərindən bu vaxta qədər belə hallar, ucuzlaşma və ardınca bahalaşma dəfələrlə müşahidə edilib və həmin proserslər məhz quş qripi, donuz qripi və digər dünyanı bürüyən xəstəliklərin fonunda müşahidə edilib. Bir sözlə, pandemiya və xəstəliklərlə bağlı mövcud problemlər qiyamətlərin enməsi və qalxması üçün maneə ola bilməz.

Hal-hazırda axı söhbət təkcə neftin qiymətlərinin bahalaşdırılmasından getmir. Müzakirə mövzusu təkcə qiymət artımı, neftin qiymətinin bahalaşması deyil. Bunun əksi də həyəcan siqnalı doğuran məqamdır və indi bu da, yəni, neftin qiymətinin ucuzlaşması kimi arzuolunmaz hal özü də gözləniləndir. İndi əsas məqsədlərdən biri də, qiymətlərin ən azından kəskin şəkildə enişinin qarşısını almaq və ifrat ucuzlaşmaya son qoymaqdır.

Qiymətlərin 20 dollar səviyyəsinə enməsi heç də son hədd sayıla bilməz və hətta qiymətinin daha aşağı düşmək təhlükəsi ilə də qara qızıl üz-üzədir. Burada qeyri-adi heç nə yoxdur və qiymətlərin bundan da aşağı düşmə ehtimalının olmaması, yaxud düşməyəcəyi barədə kimsə zəmanət verə bilməz. Çünki, neftin son qiymətindən, daha doğrusu 20 dollardan da aşağı olduğunun cəmiyyət şahidi olub və bu heç də uzaq keçmişə təsadüf etmir. Heç kim üçün sirr deyil ki, XXI əsrin başlanğıcında, daha dəqiq desək, 2001-ci ildə qara qızılın qiyməti 17-18 dollar səviyyəsində olub. Bir sözlə, neftin qiymətinin daha da "fəlakətli" qiymətə düşmə ehtimlı danıla bilməz.

Əslində, hazırki qiymətlərin, yəni, neft qiymətlərinin elə 20 dollar həddində olması özü də "fəlakətli" qiymət sayıla bilər. Çünki, dolların heç də əsrin əvvəllərindəki məzənnəsi hazırki məzənnə ilə müqaisəyə gələn deyil. Daha dıqiq desək, əsrin əvvəllərində 17, 18 dollar hazırki 20 dollardan daha çox alıcılıq qabiliyyətinə malik idi və milli valyutaya mübadilədə də hardasa indiki halda 30 dollar səviyyəsi ilə eyni olur. Elə bu baxımdan da neftin hazırki qiymətlərinə haqlı olaraq "fəlakətli" qiymət də demək olar.

Bu qiymət həddinə əbəs yerə "fəlakətli" qiymət kimi yanaşmırıq, çünki neft ixrac edən bütün ölkələr üçün bu elə sözün əsl mənasında iqtisadiyyatın sıxıntısı hesab oluna bilər. Bir də təsəvvür edəndə ki, bütün dünya pandemiya bəlası ilə qarşılaşıb vəziyyətin bir az da ağır olduğu ortaya çıxır. Çünki, onsuz da məlum pandemiya səbəbindən itgilərlə qarşılaşan ölkələr üçün neftin qiyməti daha böyük maraq dairəsindədir.

Neftin qiymətinin aşağı düşməsinin fonunda bir tərəfdən də ABŞ və Rusiyanın narahatlığı dünyanın diqqətini çəkməyə bilməzdi. ABŞ prezidenti ilə Rusiya prezidentinin 31 mart tarixində telefon danışığı vasitəsilə neftin qiyməti ilə bağlı müzakirələri heç də təsadüfi deyildi və neftin qiymətinin aşağı düşməsi məsələsinin hər iki dövlətin narahatlığına səbəb olduğu özünü açıq-aşkar biruzə verir. Çünki, qara qızılın qiymətindəki belə bir eniş heç bir superdövlət üçün belə arzuolunan deyil. ABŞ-ın özündə də neftin qiymətinin belə olduğu təqdirdə neft sənayesinin çökmə qorxusu var. Rusiya üçün də bu qiymətlər makroiqtisadi göstəricilərin aşağı düşməsi kimi xoşagəlməz nəticələr vəd edir. Belə məlum olur ki, əgər Rusiya və ABŞ kimi ölkələr narahatdırsa, deməli, bütün dünya iqtisadiyyatı üçün də bu vəziyyət heç də arzuolunan ola bilməz.

Bəllidir ki, OPEK+ ölkələri neftin qiymətinin tənzimlənməsində maraqlıdır və hər zaman bu xüsusda diqqəti cəlb edib. Lakin, hal-hazırda ən çox diqqəti çəkən məqam isə, bu zamana qədər OPEK+ ölkələrinin mövqeyinə qarşı gələn ABŞ-ın indi bu maraqlara xidmət etməsidir. İndi vəziyyət tamamilə başqa bir məcrada görünür. Beləki, OPEK+ ölkələrinin bir araya gəlməsində ABŞ-ın rolunu və maraqlı olduğunu indi bütün dünya ictimaiyyəti müşahidə edir. Müşahidə edir ki, bir zaman neft qiymətlərinə tamamilə saymazyana yanaşan ABŞ indi heç də müşahidəçi mövqedə deyil və məqsəd xam neft üzrə dünya bazarında nəzarətsizliyə yol verməməmək, parçalanmaların qarşısını almaqdır. OPEK+ ölkələrinin bir araya gəlməsinə ABŞ-ın maraq göstərməsi isə əbəs yerə deyil. Çünki, Birləşmiş Ştatlar yaxşı başa düşür və bilir ki, OPEK+ tənzimləyici gücə malikdir və bu gücü də 2017-2019-cu illər ərzində əyani şəkildə göstərib. Başda Donald Tramp olmaqla rəsmi Vaşinqton çox gözəl bilir ki, 2014-2016-cı illərdə də neftin ucuzlaşmasının qarşısını OPEK+ ölkələri ala bildi. Bir zaman, daha dəqiq desək 2017-2019-cu illərdə OPEK+ əleyhinə olan Amerikanın indi OPEC+ ölkələrinin məlum parçalanmadan sonra martın əvvəllərində təkrar bir araya gəlməsində həlledici rol oynaması özüözlüyündə təsdiq edir ki, deməli, başda ABŞ olmaqla bütün dünya neftin qiymətlərinə nəzarət edilməsində maraqlıdır. Ən azından ölkələr qara qızılın qiymətinin daha da aşağı düşməməsini arzu edir və neftiin qiyməti indi hamının maraq dairəsindədirsə bu özü nikbin proqnozlar verməyə əsas verir.

***İnam Hacıyev***


## "Nar" abunəçilərinin nəzərinə,

"Azerfon" MMC tərəfindən təqdim edilən "Nar Home" xidmətinə 30.04.2020-ci il tarixindən etibarən "İnternet xidmətlərinin göstərilməsi haqqında" abunə müqaviləsinin müvafiq bəndinə əsasən xitam veriləcək. İnternet xidmətlərinin fasiləsizliyinin təmin edilməsi üçün müqaviləyə xitam veriləcək tarixdən etibarən eyni şərtlər və qiymətlərlə, xidməti "CityNet" ticarət nişanı ilə tanınan "Uninet" MMC-dən əldə etmək mümkün olacaq. Bunun üçün "1827" qısa nömrəsindən daxil olan məlumat mesajına cavab olaraq "1" yazıb göndərmək kifayətdir. Əgər razı deyilsinizsə, "2" yazıb göndərə bilərsiniz. Ətraflı məlumat əldə etmək üçün https://www.nar.az/ev-interneti/ səhifəsinə keçid edə bilərsiniz.


## Şumaxerin bolidi satışa çıxarılıb



Formula 1 üzrə dünya çempionu Mixael Şumaxerin bolidi - "Reynard 903" satışa çıxarılıb. SİA-nın məlumatına görə, M.Şumaxer 1990-cı ildə "Reynard 903" ilə Formula 3 yarışlarının qalibi olub. 185 at gücünə malik bolidlə dünya çempionu WTS komandasının heyətində fərqlənib. Bolidin qiyməti açıqlanmasa da, satışın razılaşma əsasında mümkün olacağı qeyd olunub.Qeyd edək ki, Formula 3 yarışlarının 1990-cı il mövsümündə M.Şumaxer "Reynard 903" ilə 11 mərhələdən 5-də birinci olub.

# “Narıncı” xatırlatma...

***Artıq dəfələrlə vurğulanıb ki, özlərini müxalifətin “əsas” kəsimi kimi xalqa zorla sırımağa cəhd edən marginallaşmış qrup ünsürlərinin bütün addımları son anda gülüş, istehza hədəfinə çevrilir. Əslində burada qəribə, yaxud təəccüblü heç nə yoxdur. Dar çərçivəli düşüncə tərzi, küçə təfəkkürü və xəyanət simptomları özlərini “lider” adalandıranların əsas görünən cəhətlərinin bir hissəsidir.***



Xüsusilə, dünyanın müxtəlif ölkələrində - istər Avropada, istər Şərqdə və s. qütblərdə baş verən hadisələrin dərhal Azərbaycanda da yaşanacağını “anons” edən sözügedən qrup sonda nə qədər yanıldığının, ciddi uğursuzluğa düçar olmasının fərqinə varsa da, çox gec olur. Yəni növbəti rüsvayçılıq onların biabırçı tarixlərinin səhifələrinə həkk olur. Artıq bu, danılmaz bir reallığa çevrilib, müxalifət dedikdə nimdaş, naftalin qoxusu verən bir qrup qaragüruhçu gözlər önünə gəlir.



### Onların illərdən bəri göstərdikləri heç bir cəhdi baş tutmayıb

Yeri gəlmişkən, Prezident İlham Əliyev aprelin 14-də videokonfrans rejimində keçirdiyi müşavirəsində bir daha həmin qrupların ifşasını edib, əsl simalarını açaraq ortaya qoyub. Məsələ ondadır ki, sözdə müxalifət və onun “liderləri” uzun illərdir ki, özlərini xalqdan təcrid ediblər və pənahlarını daim xarici ölkələrdə fəaliyyət göstərən anti-Azərbaycan xarakterli dairələrdən umublar. Maliyyə, donorluq məsələlərinin hər birində sözün əsl mənasında düşmənçilik mövqelərini sərgiləyib, xəyanətkar sifarişləri həyata keçirməyə cəhdlər göstəriblər. Lakin fakt budur ki, onların illərdən bəri göstərdikləri heç bir cəhdi baş tutmayıb, bunun isə səbəbi dövlətini, Vətənini sevən xalqın onları birmənalı olaraq rədd etmələridir. Rəngdən-rəngə düşən, xarici ölkələrin dövlət başçılarının portretlərini, bayraqlarını ucuz aksiyalarında başları üzərinə qaldıran sözdə müxalifət “liderləri” məsxərə obyektinə çevriliblər və bu gün də belədir.

### Komediya və şou...

Məhz bu kimi halları xatırlayarkən, dövlət başçısı İlham Əliyev həmin ünsürlərin gerçək sifətlərini faş edərək, bu həqiqətləri diqqətə çatdırıb, müxalifətdə olan bu qruplaşmaların vaxtilə Azərbaycanda “narıncı inqilab” başlatmaq cəhdlərini xatırladıb, onların həmin fəaliyyətini gülünc adlandırıb. SİTAT: “Yadınıza salın, 2005-ci ildə postsovet məkanında inqilablar baş verdiyi zaman onlar da bundan ruhlanıb “narıncı inqilab” etmək fikrinə düşmüşdülər. Hətta özləri üçün ayrı bir rəng də seçməkdə çətinlik çəkdilər, Ukraynadan o vaxt narıncı rəngi götürüb burada tətbiq etmək istədilər. Narıncı rəngdə maykalar, bantlar sifariş edib ölkəmizə gətirdilər. Ancaq bir şeyi nəzərə almadılar ki, o vaxt, 2005-ci ildə parlament seçkiləri noyabr ayında keçirilmişdi. Noyabrda artıq soyuqlar başlayır. O gülməli mənzərə yadımdadır ki, bunlar pencəyin, paltonun üstündən narıncı maykaları geyib küçələrə çıxmışdılar. Bəziləri isə boyunlarına salmış, bəziləri başlarına bağlamışdılar. Bu, bir komediya mənzərəsi yaradırdı. Bax, budur bunların qabiliyyəti. O da alınmadı. Ondan sonra “ərəb baharı” başlayanda yenə də ruhlandılar ki, bunların əlinə bir fürsət düşəcək. 2011-2012-ci illərdə Azərbaycanda “ərəb baharı”nın təkrarlanmasını istəmişdilər. O da alınmadı. 2013-cü ildə prezident seçkiləri ərəfəsində hansı eybəcər addımlar atmışdılar, onu hər kəs xatırlayır”.

Prezident İlham Əliyevin bu xatırlatmasında bir sıra mühüm amillər və insanları bütün bunlardan real nəticələr çıxarmağa sövq edir.

### Bütün bunlar isə, həm də “beşinci kolon” adlandırılan hay-havarçı qaragüruhçuların məntiqi sonluğudur

Əgər marginallaşmış dağıdıcı qruplar “dövlət”, “xalq”, “millət” kimi şüarları əllərində bayraq edirlərsə, başqa-başqa ölkələrdə baş verənlərdən niyə bəhrələnirlər? Sual edilə bilər ki, 2005-ci ilin payızında keçmiş “Qələbə” kinoteatrının qarşısında başlarının üzərinə ABŞ-ın sabiq prezidenti Corc Buşun porterini qaldırarkən, düşünmürdülərmi ki, bu vasitə ilə özlərini daha dərin uçuruma doğru sürükləyirlər? Tunisdə özünü yandıran göysatanı ölkəmizdə “qəhrəmanlaşdırıb” bundan öz qara məqsədləri üçün istifadə edərkən, anlamırdılarmı ki, xalq belə olan halda onlardan daha çox nifrət edəcək? Yaxud, Avropa ölkələrində baş verən iğtişaşlardan “vəcdə” gələrkən başa düşmürdülərmi ki, tamamilə ayrı bir dövlətin siyasi müxalifətçilik metodu heç vaxt Azərbaycanda keçməyəcək? Bəlkə də bunu anlayırdılar, amma pul-para, maliyyə, qrant maraqları onlar üçün ən vacib olan “meyar” idi. Bu gün də belə olaraq qalmaqdadır. Ataların daha tez-tez işlətdiyi bir məsəli var, qozbeli qəbir düzəldər. Amma bunların bellərindəki donqarlıq o qədər dərin kök salıb ki, heç qəbir də düzəldən deyil, baxmayaraq ki, artıq siyasi məzarlarına gömülüblər. Əgər sosial şəbəkələrdə, canlı yayımlarda çıxıb boş-boş çərənləyirlərsə, bu heç də onların siyasi cəhətdən ayaq üzərində qalmaları mənasını daşımır, əksinə, bu onların siyasi məzarlarından gələn uğultudan başqa heç nə deyil. Hətta nə dediklərini özləri də doğru-dürüst anlamırlar. Bütün bunlar isə, həm də “beşinci kolon” adlandırılan hay-havarçı qaragüruhçuların məntiqi sonluğudur. Dövlətimizin lideri də məhz həmin gerçəkliyi xalqa xatırlatmaqla, əslində kimin-kim olduğu reallığın bütün faktlarla ortaya qoymuş oldu!

***Rövşən RƏSULOV***

# Yasda iştirak adı ilə karantin rejimini pozanlar cəzalandırılıb



Yas mərasimində iştirak etmək adı ilə həqiqətə uyğun olmayan və ya yaxın qohumluq statusu daşımayanların yas mərasimlərində iştirak etmək bəhanəsi ilə qanunsuz yerə 8103 qısa nömrəsi vasitəsi ilə icazələr alaraq epidemiya əleyhinə rejimin tələblərini pozan şəxslərin müəyyən edilməsi istiqamətində polis əməkdaşları tərəfindən tədbirlər davam etdirilir. Daxili İşlər Nazirliyindən SİA-ya verilən məlumata görə, aprelin 14-ü və 15-i tarixləri arasında paytaxt Bakı və Respublikanın ayrı-ayrı rayonlarında bu üsuldan istifadə edərək karantin qaydalarını pozan ümumilikdə 115 nəfərin şəxsiyyəti müəyyən edilib. Həmin şəxslər polis idarə, şöbə və bölmələrinə gətirilərək izahatları alınıb. Bu cür sui-istifadə hallarına yol verənlər barəsində İnzibati Xətalar Məcəlləsinin 211-ci maddəsi ilə müvafiq tədbirlər görülüb və hər biri 100 manat məbləğində cərimə edilib. Bir nəfər barəsində isə inzibati qaydada məhkəmənin qərarı ilə həbs qərarı çıxarılıb.

“Bir daha diqqətə çatdırırıq ki, 8103 nömrəsinə edilən bütün müraciətlər ciddi və hərtərəfli araşdırılır. Bu səbəbdən vətəndaşlardan tələb olunur ki, 8103 xidmətindən sui-istifadə hallarına yol verməsinlər. Əks halda bu davranış karantin rejimi tələblərinin pozulması kimi qeydə alınaraq həmin şəxs barəsində ciddi cəza tədbirləri görüləcək”, - deyə məlumatda qeyd olunub

## Avtomobildən pul oğurlayan Göyçay sakini saxlanılıb

Binəqədi rayonu ərazisində avtomobildən pul və sənəd oğurlamaqda şübhəli bilinən Göyçay rayon sakini T.Mehdiyev saxlanılıb. Daxili İşlər Nazirliyindən SİA-ya verilən xəbərə görə, Binəqədi RPİ 5-ci PB əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində yanvarın 13-də rayon ərazisində “KİA” markalı avtomobildən 1000 manat pul və sənəd oğurlamaqda şübhəli bilinən Göyçay rayon sakini, əvvəllər məhkum olunmuş T.Mehdiyev saxlanılıb.

# Bu tələbələrin təhsil haqları dövlət vəsaiti hesabına ödənilməyəcək



**Normativ təhsil müddətindən çox təhsil alan tələbələrin təhsil haqları dövlət büdcəsindən ayrılan maliyyə vəsaiti hesabına ödənilməyəcək. SİA-nın məlumatına görə, bunu təhsil nazirinin müavini İdris İsayev deyib.**

Onun sözlərinə görə, sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbənin təhsil haqqının dövlət büdcəsi hesabına ödənilməsi üçün həmin tələbə normativ təhsil müddətində təhsil almalıdır: “Ali təhsilin bakalavriat təhsili üzrə normativ təhsil müddəti 4 ildir. Magistratura səviyyəsi üzrə il yarım və iki ildir. Orta ixtisas təhsili müəssisələrində təhsil müddəti 2 il, peşə təhsili pilləsində təhsilin müddəti 6 aydan 4 ilə qədərdir. Lakin elə tələbə olur ki, o, normativ təhsil müddətindən çox təhsil alır. Məsələn, bakalavriat səviyyəsi üzrə təhsil alan tələbə kəsiri olduğu üçün 5 və ya 6 il oxuyur. Təhsil haqqının dövlət vəsaiti hesabına ödənilməsi bu tələbələrə şamil edilməyəcək”.

Xatırladaq ki, koronavirus pandemiyası ilə əlaqədar olaraq, Nazirlər Kabinetinin qərarı ilə sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərcləri dövlət büdcəsinin vəsaiti hesabına ödəniləcək. Tələbənin təhsil haqqı xərcinin 50 faizi 2019-2020-ci ilin yaz semestri, 50 faizi isə 2020-2021-ci tədris ilinin payız semestri üzrə elektron qaydada ödəniləcək.

# Əli Kərimli bir yolla gündəmə gəlməyi planlaşdırır

## *Sevinc Osmanqızına və Qənimət Zahidə AXCP sədrinə dəstək üçün yeni təlimat verilib*

***Mövcud reallıqlara əsaslanaraq demək olar ki, Azərbaycanın dünyada yeri və rolu möhkəmləndikcə, xarici maraqlı dairələr və onların əlaltıları ölkəmizə qarşı daha amansız qarayaxma kampaniyası aparır, şər və böhtanlarını daha geniş şəkil də, səsləndirirlər. Sosial dayaqlarını itirmiş dağıdıcı müxalif ünsürlər Azərbaycanın hərtərəfli inkişafını gördükləri və bu vəziyyətin onların məkrli məqsədlərinə çatmalarında cidd əngəl olacağını dərk etdikləri üçün anti-Azərbaycan dairələrlə işbirliyinə gedirlər. Çünki özləri demiş, məqsədlərinə çatmaq üçün şeytanla da əməkdaşlığa hazırdırlar.***







AXCP, Müsavat liderləri kimi marginallaşmış, milli maraqları tapdaq altına atan xəyanətkarların yalan vədlər, populist çağrışlarla insanları aldatmağa və bununlada maddi və mənəvi dəstək aldıqları xarici maraqlı dairələrin göstərişlərini yerinə yetirməyə çalışdıqları təkzib olunmaz faktora çevrilib. Maraqlı məqamlardan biri də, odur ki, AXCP, Müsavat, “Milli Şura” funksionerlərinin təxribat maşını digər hansı ağıla və mənsəbə qulluq etdikləri bilinməyən “cırtdan” partiyaları və onların yetkililərini də, zəhərləməkdədir. Yəni, ADP sədri Sərdar Cəlaloğlu, “VİP” sədri Əli Əliyev, “Ümid” sədri İqbal Ağazadə və digərləri “bəlkə xarici dairələr bizlərə də, bir şey verdi” arzusu ilə, sosial şəbəkələrdə sərsəm xarakterli düşük vidiolar, statuslar paylaşırlar. Xatırlatmaq lazımdır ki, S.Cəlaloğlu və İ.Ağazadə bir qədər əvvəl meydana çıxaraq “Qarabağ və Respublika Uğrunda” Hərəkatın yaradılması təşəbbüsü ilə çıxış ediblər. Bəh-bəhlə yaradılan yenu qurumda ADP, “Ümid”, Klassik Xalq Cəbhəsi, Azadlıq, Liberal-Demokrat, “Vətəndaş və İnkişaf”, Aydınlar, “Böyük Azərbaycan”, Azərbaycan Xalq və Azad Demokrat partiyaları təmsil olunurlar. “Qarabağ və Respublika Uğrunda” Hərəkatın yaradılmasından öncə isə, bu biçarələr bir araya gələrək, “SPDİHMM” adlı qurum yartmışdırlar.

Müxalifət koronavirus epidemiyasından siyasi maraqları üçün istifadə etməyə çalışır

Hətta bu partiyaların sədrləri Polaşanın Azərbaycandakı səfiri Beata Baranşka ilə görüşərək, ondan bu qurumun siyasi arenaya çıxmasına dəstəyini almışdılar. Bununla S.Cəlaloğlu, M.Mirəlioğlu, İ.Ağazadə və digərləri səfirin timsalında Avropadakı maraqlı qüvvələrdən yardım almaq arzusunda olduqlarını nümayiş etdirmişlər. Anacaq Qərbdəki maraqlı dairələr işlərini yalnız AXCP, “Milli Şura” və Müsavat yetkiləri ilə qurduqlarından, “SPDİHMM” təmsilçilərinin istəkləri iflasa uğramışdır. Beləliklə də, yeni yaradılan qurum siyasi arenada işıq üzü görmədən fəaliyyətini dayandırdı. Yaradılan “Qarabağ və Respublika Uğrunda” Hərəkatının perespektivinə böyük ümidlər bəsləyən İ.Ağazadə və S.Cəlaloğlu yenidən Polşanın Azərbaycandakl səfirinin dəstəyinə ümid bəsləməklə gündəmə gəlmək və bununla da təxribatlar törətmək, şər və böhtanlar seləndirməkdə AXCP, Müsavat, “Milli Şura” funksionerlərindən geri qalmadıqlarını nümayiş etdirmək istəyirlər. ASDP sədri Araz Əlizadə bildirir ki, ABŞ hansısa ölkədə sabitliyi pozmaq, çaxnaşma salmaq istəyirsə, oradakı gədə-güdəni bir yerə yığır və İsveç vasitəsilə Polşa maliyyələşir və həmin gədə-güdələr orada təlim görürlər: “Biz bunu Ukraynadakı “narıncı inqilab”da, Maydan hadisələrində, Gürcüstandakı “qızılgül” inqilabında da müşahidə etmişik. Postsovet məkanında harada inqilab olursa, orada Polşanın barmağını görürük. Polyaklar haqqında ən gözəl tərifi Karl Marks verib: Qəribə millətdirlər, harada istəsən orada xaos yarada, insanları bir-birinə qarşı qoyub qırdıra bilər, sonra isə yaxalarını kənara çəkə bilərlər. Rusiyaya qarşı embarqonu, iqtisadi sanksiyaları vaxtilə, elə indi də hamıdan çox tələb edən Polşa olub. Amma sonradan Polşa Avropa İttifaqına birinci müraciət etdi ki, alma satışından 500 milyon itirmişəm, mənim pulumu ver”.

Bir sözlə, görünən odur ki, koronavirus epidemiyasının dünyanı ağuşuna aldığı bir vaxtda müxalifət düşərgəsində təmsil olunan partiya funksionerləri Azərbaycan xalqı ilə birlik nümayiş etdirməkdənsə təxribatlara daha çox üstünlük verirlər. Xüsusilə də, Ə.Kərimli sanki, bu günü gözləyirmiş kimi, ağına- bozuna baxmadan pozucu fəliyyətini daha açıq və sərt formada genişləndirir. Hətta “Siyasi partiyalar haqqında” qanunu kobud şəkildə pozaraq məram və məqsədlərini anlamayan insanları küçələrə çıxmağa və silahlı qarşıdurma yaratmağa çağırır. Məlumata görə, Ə.Kərimli növbəti günlər də, səs-küylü təxribatlar törətməyi planlaşdırır. Hətta bu təxribatların xarici ölkələrin mətbu orqanlarında işıqlandırılması və beynəlxalq təşkilatların rəhbərlərinə operativ şəkil də, çatdırılması üçün Sevinc Osmanqızına və Qənimət Zahidə də, Qərbin anti-Azərbaycan dairələri tərəfindən xüsusi təlimatların verildiyi bildirilir. Bütün bunlar onu təsdiq edir ki, pozucu şəbəkə geniş fəaliyyətə başlayıb. Bu isə, cavabsız qalmamalı və hüquq mühafizə orqanları planlaşdırılan qanunsuz hərəkətləri araşdırılmalı və ona qiymət verilməlidir.

**İ.ƏLİYEV**

---

# “Cəbhəbaşı” Kərimlinin “karantin çağırışı” yoxsa - tüpürdüyünü yalamaq?

***Məlum olduğu kimi, AXCP sədri Əli Kərimli Sevinc Osmanqızının anti-Azərbayan dairələr və erməni lobbisi tərəfindən maliyyə dəstəyi alan “Osmanqızı tv” vasitəsi ilə qaragüruhçu qrupları itaətsizliyə, karantin rejimini pozmağa yönəlik çağırışları etmişdi. Hətta bununla bağlı ötən gün saytımızda AXCP sədrinin çağırışına dəstək verən anarxist dəstələrin rəyləri, statusları da ictimaiyyətin diqqətinə çatdırılmışdı. Lakin...***



Bu “siyasətlərini” də əvvəllər olduğu kimi, siyasi savadsızlıqla, ağılsızcasına yürüdərək, özlərini daha çox ifşa etmiş oldular

Lakin bu ifşadan sonra Ə.Kərimli dərhal və hər zamankı kimi qorxub-geriyə çəkilərək, necə deyərlər, “tüpürdüyünü yalamağa” məcbur olub. Daha dəqiq desək, faktlar bir-birini ardıcıl surətdə əvəzlədikcə, “cəbhəbaşı” Kərimli sözün həqiqi mənasında hansı səhvə yol verdiyini gec də olsa dərk edərək, sözlərini geri götürməklə yanaşı, hətta partiyadaşlarını evdə oturub, karantin rejiminə əməl etməyə (?!-R.N.) səsləyib. Hələ bu da azmış kimi, o “Milli Şura”dakı adamlarına - Cəmil Həsənliyə, Gültəkin Hacıbəyliyə və başqalarına sosial şəbəkələrdə karantin rejiminə riayət etmək istiqamətində statuslar yazmalarını tapşırıb. Guya o və ətrafı dinc siyasi mübarizənin tərəfdarı olduqlarını tirajlamağa cəhd etdilər. Ancaq qeyd olunduğu kimi, bu “siyasətlərini” də əvvəllər olduğu kimi, siyasi savadsızlıqla, ağılsızcasına yürüdərək, özlərini daha çox ifşa etmiş oldular.

Onun üçün maraqlı olan istənilən qanunları pozmaq bu barədə xaricdəki ağalarına hesabat verməkdir

Əslində həmin ifşa hələ ötən ayın martında baş verib. Xatırlatmaq yerinə düşərdi ki, məhz martın 14-də “cəbhəbaşı” Ə.Kərimli kafelərin birində tərəfdarlarını bir yerə yığaraq, heç bir karantin rejiminə əməl etmədən toplantı keçirmişdi. Bununla da sübut etmişdi ki, onun üçün nə insanların salamlığı, nə də qanunlar maraqlı deyil. Onun üçün maraqlı olan istənilən qanunları pozmaq bu barədə xaricdəki ağalarına hesabat verməkdir. Və..!

Əsas məsələlərdən biri də budur ki, indi də “dinc siyasi mübarizə” məsələsini gündəmə çıxarıb, kirli əməllərini gizlətməyə çalışan AXCP sədri yəqin ki, ötən il icazəsiz aksiya cəhdlərini və insanları küçələrə səsləməsini, polislə qarşıdurmaya getməsini də unutmayıb.

Digər tərəfdən, bu həmin Ə.Kərimlidir ki, onun ayağına hələ 1992-ci ilin cinayətləri yazılıb. Tarix və xalq da unutmayıb ki, hələ həmin ildə Ali Sovetin binasına silahlı hücum zamanında da, 2003, 2005 və sonrakı illərdəki olaylarda da onun adı birincilər sırasında yer alır. Sözün qısası, bu gün “tüpürdüyünü yalayıb” geriyə addım atan “cəbhəbaşı” Kərimli karantin rejiminə əməl etmək çağırışları ilə heç də törətdiyi əməllərini qara səhifələrdən silə bilməyəcək...

***Rövşən NURƏDDİNOĞLU***

# Ermənistan faşist, irqçi və terrorçu dövlətdir

***Prezident İlham Əliyev Aşqabad şəhərində keçirilən MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında Ermənistanda hökm sürən nasizm və faşizmə diqqət çəkib, Ermənistanda faşizm ideologiyasına çəkən terrorizmi bir daha ifşa edib".***

Qaregin Njde ləqəbi ilə alman faşistlərinə xidmət etmiş Qaregin Ter-Arutyunyana Ermənistanda heykəl qoyulması Ermənistanın əsaslarının yarandığı gündən məhz terrorizm üzərində qurulmasından xəbər verir, Azərbaycan torpaqlarının işğal edilməsində, xalqımıza qarşı soyqırımın həyata keçirilməsində də bu cür faşist, nasist əhval-ruhiyyə mühüm rol oynayıb. Terrorizm və faşizmlə silahlanan bir ölkə rəhbərliyi sülh yolu ilə Dağlıq Qarabağ probleminin həlli istiqamətində addımlar ata bilməz. Bu mənada Azərbaycan Prezidentinin Ermənistandakı daxili ideoloji, siyasi abı-havanı ifşa etməsi, bunu MDB dövlət başçılarının diqqətinə çatdırması əslində Ermənistanın işğalçılıq siyasətinin iç üzünün açılması demək idi.

Professor Qafar Çaxmaqlı özünün fundamental "Erməni faşizmi" kitabında yazır:"Tsexakron - ermənicə iki sözün - irq) ve din kəlmələrinin birləşməsidir. Qaregin Njde (Qaregin Ter- Harutyunyan) tərəfindən ortaya atılan bu hərəkata Tsexakron, onun ideoloji təliminə isə Tsexakronutyun (tsexakronizm) adı verilmişdir. Ermənistan Respublikası bu təlimi əsas alaraq öz dövlət siysətini müəyyənləşdirir.Keçmişdövlət başçısı Serj Sarkisyanın rəhbəri olduğu Ermənistan Respublikaçılar partiyası Njdeni özlərinin lideri, ideoloji öndəri sayır. O həm də ermənilərin ən məşhur tarixi şəxsiyyətlərindən biri hesab olunur. Ermənistan öz dövlət siyasətini Tsexakron təlimi əsasında müəyyənləşdirir. Erməni milli şovinizmini əsrin ilk onilliklərində davam etdirdiyi siyasəti ayaqda tutmaq və onu bütün ermənilər yaşayan yerlərə çatdırmaq üçün belə bir təlimə ehtiyac var idi-qənaətindədi Ermənistan toplumu.Burada əsas məqsəd, Tsexakron ideologiyası çərçivəsində guya erməni millətini, ana köklərindən uzaqlaşmaq təhlükəsi qarısında qalan Erməni diasporasını və xüsusilə gəncləri yenidən səfərbər edərək Türkiyəyə qarşı bir hərəkat meydana gətirmək idi. Garegin Njde önce savaş meydanında Türklərə divan tutmağa çalışmışdır. Qəddarlıqda Andranikdən geri qalmayan bu şəxsin tökdüyü qanların sayı-hesabı yoxdur. İstədiyinə nail ola bilməyən (əslində ermənilər nə istəmişdilər onu artıqlaması ilə almışdılar) "2004-ci ildə Ermənistanda, keçmiş iqtidarda olan Respublikaçılar Partiyası tərəfindən çap edilmiş "Garegin Njdenin Təlimi" kitabı hər bir erməni üçün stolüstü kitab anlamına gəlir.

Tsexakron təlimi aşağıdakı kimi inşa edilir: "Mən öz Soyumu (tsex) bilirəm, mən öz nəslimə güvənirəm, mənim soyum Allaha daha yaxındır, ali irqdir, mən cismimdə Tsexarakonu daşıyıram". Bu cəhətdən Tsexakron faşizmlə eyniləşir. Maraqlıdır ki, eyni illərdə İtaliyada faşizm, Almaniyada isə milli sosializm düşüncələri ictimai kütlələrə sirayət etməyə başlamışdı. Başqa bir deyişlə, Ermənistan o dövrdə müstəqil bir dövlət kimi qalsaydı, bir erməni faşist quruluşundan bəhs edəcəkdik. Əslində XXI əsrin diqtə etdyi meyarlara bugünki erməni dövləti əməl etmək, ona uyğunlaşmaq istəmir. Bir çox məsələlərə münasibətdə yenə də faşist yanaşma açıqca görmək mümkündür. Dövlət bu gün də Njdenin məlum təlimi ilə yönləndirilirsə demək nasional sosializmdən hələ uzaqlaşa bilməmişdir. Ermənistan Respublikaçılar Partiyasının ermənicə və rusca çap etdirdiyi "Garegin Njde və onun təlimi" (Yerevan-2004)14 kitabında qeyd olunur ki, II Dünya müharibəsi başlanarkən Njde bilirdi ki, Avropa ölkələrində antierməni ovqat güclənmişdi və Almanlarda belə bir fikir vardı ki, ermənilər Almaniyanın düşmənlərinə yardım edərlər."

Q.Çaxmaqlı daha sonar yazır: "Ermənistan o dövrdə müstəqil dövlət kimi qalsaydı, bir erməni faşist quruluşundan bəhs edəcəkdik. Erməniləri də yəhudilərin taleyini yaşayacaqlarından ehtəyatlanan Njde hərəkətə keçərək Almanlarla əlaqəyə girir və Bolqarıstan və Ruminiyada ermənilərin bu ölkələrdən qovulub çıxarılmasının qarşısını alır. Ruminiya baş naziri Antoneskunun erməniləri toplu halında yaşadıqları yerlərdən çıxarılması əmri vardı. Njde 1942-ci ildə Berlinə gedərək ermənilərin almanlara sədaqətli olacaqlarını sübut edən materiallar aparmışdı. Bu materiallar sonradan onun həbs olunaraq 25 il cəza almasına səbəb oldu. O Berlində Dro ilə də görüşmüşdü. Dro da almanların yanında olan erməni liderlərdən idi. Həbsdən sonra baxın nə edir bu ideoloq. Sovet hökümətinin Türkiyəyə heç də yaxşı olmayan münasibətlərindən istifadə edərək 1947-ci ildə təklif edir ki, "Xaricdə yaşayan ermənilərin hərbi-siyasi təşkilatı" yaradılsın və o Türkiyənin Şərqindəki vilayətləri SSRİ-yə (Sovet Ermənistanına) birləşdirməyi təklif edir.

Amma bu qəbul olunmur. Sovet hökuməti bu cinayətkarla əməkdaşlıq etmir. "Qaregin Njde və KGB" adlı kitabında yazar Ustyan qeyd edir ki, Njdenin məramı Sovetlərin məqsədləri ilə üst-üstə düşmür.

Njdenin Tsexakron təliminə görə, hər bir erməni bütün həyatı boyunca "Qərbi Ermənistanın" (Şərqi Anadolu torpaqları) türklərin əlindən alınmasına çalışmalıdır. "Batı Ermənistan" dedikləri Türkiyənin 6 Şərqi Anadolu vilayətləri də buraya aid edilirdi.

"Mən Yer Kürəsindəki ilahi izləri öz soyumda oxudum, gördüm, öpdüm, təzim etdim və Tsexakrona çevrildim" deyərkən Njde ermənilərin ilahi soydan gəldiyini iddia edir və iddia edir ki, "Soy Allah kimi birincidir. Erməni soyu da Allah kimi əsrlərin şahididir, o, əbədi olaraq ermənidir, Allahın ortağıdır". Ona görə, soy Ruhun və Qanın sintezidir, psixoloji anbardır və eyni zamanda bioloji quruluşdur, insan etnosuna bir birindən fərqlilik, özünəxaslıq xarakteri verir. Onun fikrincə, Tsexakronutyun bu cəhdləri qoruyub saxlamaq üçün soyun əlində bir əbədi varlıqdır. Bu ermənin varlığını Əbədi etmək və erməni kimi Yaşamağı təlqin və özündə ehtiva edir. Ermənin özünüdərki üçün bu təlimə inam da aşılanmalıdır. Kronçular bunu etməlidirlər."

Tsexakron Müqəddəs Soyu tanıyır və elan edir: "Erməni olmağa o adam layiq deyildir ki, onun üçün bizim planetdə "erməni" kəlməsindən daha üstün şeylər vardır".

Və yaxud, "Erməni olmaqdan əvvəl də sən Erməni olmalısan!", "Erməni öz tarixində Ermənidən daha öncə adam olmuşdur, bu xüsusiyyətinə görə də onun faciələri qaçılmaz olmuşdur".

Njdeyə görə, erməni xalqı aşağıdakı Kultlarlahəyatını davam etməlidir. Bunlardır:

Vətən kultu, Qan kultu, Dil kultu, Vətən uğrunda öz həyatını qurban etmə kultu, Ulular kultu, Güc kultu, Öndər kultu.Erməni üçün dəyişməyən prinsiplər də bunlardan ibarətdir.

Prezident İlham Əliyev həm tarixi arqumentlərlə, həm də bugünkü işğalçılıq siyasətinin həyata keçirilməsi kontekstində Ermənistanda faişzmi, nasizmi ifşa etdi, bunun bütün MDB məkanında fiaşizmin qurbanları olmuş insanların xatirəsinə hörmət baxımından da yolverilməz olduğunu bildirdi: "Arqumentlərlə əsaslandırılmış bu fikirlər Soçi şəhərində keçirilən "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasından səsləndirilən "Dağlıq Qarabağ Azərbaycandır!" bəyanatından sonra Ermənistana yeni zərbə oldu. Bununla Prezident İlham Əliyev Ermənistanda hansı proseslərin getdiyini və bunun nə dərəcədə təhlükəli olduğunu dünya ictimaiyyətinə çatdırmış oldu.Ermənistanın həyata keçirdiyi işğalçılıq siyasətinin və onun ideoloji əsaslarının bir mənbəyi ermənilərin faşizm və nasizmə sevgisidir.MDB ölkələri sırasında isə belə zərərli, terrorizmlə silahlanmış bir dövlətin olması təkcə Azərbaycan deyil, bütün MDB ölkələri üçün təhlükə mənbəyidir.Azərbaycan Prezidenti öz çıxışında bütün bunları bir daha ifşa etməklə Ermənistanın nə qədər təhlükəli yolda olduğunu diqqətə çatdırdı.Düşünürəm ki, bu, bir daha Azərbaycan həqiqətlərinin erməni işğalçılarının fəaliyyəti kontekstində dünyaya çatdırılması idi.Bu çıxışdan sonra Xocalı soyqırımının, Ağdaban faciəsinin törədilməsinin ideoloji, siyasi əsaslarının da MDB dövlət başçıları daha düzgün dərk etmiş oldular.Əgər bunun qarşısı alınmasa, bu zərərli tendensiya pis nümunə kimi yaxşı nəticələrə gətirib çıxara bilməz.Ona görə Dağlıq Qarabağ münaqişəsinin həlli bir daha zərurət kimi ortaya çıxır.Dövlət başçısı da çıxışında bunu vurğuladı".

Prezident İlham Əliyevin MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında yenidən Ermənistanın işğalçılıq siyasəti və onun ağır nəticələri barədə və Ermənistanda bu gün beynəlxalq sülhə və təhlükəsizliyə qarşı yönəlmiş siyasətin bütün mahiyyətini açan çox mühüm çıxış edib: ""Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasından sonra Prezident İlham Əliyevin artıq ikinci dəfə Aşqabadda hücum taktikasına söykənən növbəti çıxışının şahidi olduq. Prezident İlham Əliyev Azərbaycan həqiqətlərini söykəyən çıxışları ilə əlaqədar zamanın, məqamın və yerin seçilməsinə xüsusi önəm verir.Bu baxımdan MDB məkanında baş verən proseslərin öyrənilməsi baxımından MDB dövlət başçılarının iclası da dünyada diqqətlə izlənilir.Eyni zamanda faşizm üzərində qələbənin 75-ci ildönümü yaxınlaşdığı üçün iclasda müzakirələr həm də bu ətrafda olacaqdı.Bütün bəşəriyyət faşizm üzərində qələbənin 75 illiyini qeyd etməyə hazırlaşır.Bu məqamdan Prezident İlham Əliyev maksimum faydalandı və ilk növbədə Azərbaycanın 1941-1945-ci illərdə faşizm üzərində qələbənin əldə edilməsində müstəsna xidmətlərini faktlarla, arqumentlərlə əsaslandırdı. Dövlət başçısı vurğuladı ki, həmin dövrdə neftin 70 faizi, benzinin 80 faizdən çoxunu, mühərrik yağının 90 faizindən çoxunu Azərbaycan təmin edirdi və Bakı nefti olmasaydı, faşizm üzərində qələbə də çox çətin olardı. Prezident İlham Əliyev bu reallıq fonunda bu gün MDB məkanında faşizmin qəhrəmanlaşdırılmasına, təbliğinə, faşistlərlə əməkdaşlıq etmiş şəxslərin Ermənistanda qəhrəman kimi təqdim olunmasına diqqət çəkdi, 2016-cı ildə Ermənistanda faşistlərin əlaltısı olmuş cinayətkar Qaregin Njdeyə heykəl qoyulduğun xatırlatdı. Bu heykəli Ermənistanda əvvəlki hakimiyyət qoysa da, bugünkü hakimiyyət də heykəli qoruyub saxlayır.Faşistə xidmət etmiş şəxsi qəhrəmanlaşdırırsansa, bu, faşizmə qarşı mübarizəyə ziddir".

Ermənistan dünyada nadir ölkələrdəndir ki, faşist Qaregin Njdeyə heykəl ucaldıb və onu milli qəhrəman statusuna yüksəldib.Njdenin faşistlərlə əlaqəsi, 25 minlik erməni faşist legionun yaradılmasında rolu, bütün keçmiş sovet xalqlarından formalaşan sovet ordusuna qarşı döyüşməsi və yəhudilərə qarşı soyqırımda aktiv iştirakı danılmazdır və sənədlərlə artıq sübut olunub.Qaregin Njde həm də 1918-1921-ci illərdə Zəngəzur mahalında yerli azərbaycanlılara qarşı vəhşi cinayətlərin törədilməsinə də başçılıq edib.Belə bir faşist cinayətkara Ermənistan hökuməti tərəfindən heykəl qoyulması ilk növbədə Ermənistanın əvvəlki hökumətinin xislətindən, faşist ideyalarının daşıyıcısı olmasından irəli gəlir.Çünki məhz onlar eyni faşist metodları ilə Dağlıq Qarabağda azərbaycanlıların qətlinin müəllifləri idi.Məsuliyyətli və regionun gələcək taleyində maraqlı olan lider kimi İlham Əliyevin bu məsələdə qətiyyətli mövqeyi regionun bütün xalqlarının maraqlarına xidmət edir.

***Vahid Ömərov,***
***Fəlsəfə üzrə fəlsəfə doktoru,***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Qəzet 1991-ci il
yanvarın 11-dən çıxır

SƏS

Son səhifə

16 aprel

# Diqqət: Ürək-damar xəstələri necə qidalanmalı?

***Ürək-damar xəstəliklərinin inkişafına meyvə-tərəvəzlərin az, duz və doymuş turşuların isə həddindən artıq istehlakı, gündəlik qəbul edilən qidaların tərkibində lifin azlığı və ya olmaması, qeyri-adekvat və balanslaşdırılmamış qidalanma kimi amillər təsir edir. Artıq çəki və piylənmə, qanda yağların səviyyəsinin yüksəlməsi, yüksək qan təzyiqi xəstəliyinin başvermə ehtimalını artıran risk faktorlarındandır. Ürək-damar xəstəliklərinin inkişafı həyat tərzi, xüsusən tütünçəkmə, mütəmadi alkoqol qə-***



Belə ki, xəstəlik daha çox 40 yaşdan yuxarı insanlarda müşahidə edilir. Həmçinin kişilərlə müqayisədə qadınlarda xəstəliyin əmələ gəlməsi riski daha aşağıdır.

Qida Təhlükəsizliyi Agentliyinin AZƏRTAC-a ünvanladığı maarifləndirici materialda ürək-damar xəstəliklərinin profilaktikasında mühüm rol oynayan düzgün və sağlam qidalanma ilə əlaqədar tövsiyələr əksini tapıb. Həmin tövsiyələrdə qeyd olunur:

X Qidanı gündə 5-6 dəfə olmaqla kiçik porsiyalarla qəbul etmək lazımdır.

X Gün ərzində istifadə edilən duzun miqdarı azaldılmalıdır. Duz bədəndə artıq mayenin toplanması ilə ödəmin yaranmasına və qan təzyiqinin artmasına səbəb olur.

X Heyvan mənşəli yağların qəbulunu azaltmaq lazımdır. Konservləşdirilmiş ət, yağlı quş əti, kolbasa və s. məhsullar xolesterolla zəngin olduğu üçün qan damarlarına yığılaraq ürəyi qidalandıran damarların funksiyasının pozulmasına səbəb ola bilər.

X Gün ərzində 1,5-2 litr su qəbul edilməlidir.

X Spirtli və şirin içkilərdən imtina olunmalıdır.

X Kaliumla zəngin qidalar (banan, üzüm, kivi, gavalı, ərik və onların şirəsi, quru meyvələr, itburnu, həmçinin kartof, kələm, balqabaq) ürək üçün çox faydalıdır.

X Tərkibində maqnezium duzları ilə zəngin olan qidaların (çovdar və buğda kəpəkli çörəklər, yulaf, arpa və qarabaşaq yarması, çuğundur, yerkökü, kahı, cəfəri, qoz, badam, qara qarağat) istehlakına üstünlük verilməlidir.

X Balığın tərkibindəki Omeqa-3 sağlamlıq üçün faydalı olan vacib məhsullardandır və qida rasionunda əsas yer tutmalıdır.

X Yatmazdan əvvəl yaranmış aclıq hissini aradan qaldırmaq üçün 1 stəkan kefir içmək və ya 1 ədəd alma yemək olar.

# Selena Qomezin reklam qiyməti: 800 min dollar!



Məşhur ABŞ aktrisası və müğənni Selena Qomez"Clothes Forever" video oyununun rəhbərliyini məhkəməyə verib. TMZ-nın xəbərinə görə, məşhur ulduz buaddımı oyundakı qəhrəmanın Qomezə bənzəməsi səbəbindən atıb.

Qomez ondan icazə almadan "Flare" jurnalının üz qabığındakı şəklindən istifadə olunduğunu iddia edir. Sənətçi, eyni zamanda onun obrazından istifadə edilən reklamın qiymətinin 800 min dollar (1 360 000 AZN) olduğunu da açıqlayıb.

"AppStore"da yerləşdirilən oyunun son dərəcə mənfi rəylər aldığını qeyd edən müğənni bu hadisənin onun reklam gəlirinə zərər vurduğunu iddia edib. O,itkilərin geri qaytarılması üçüntətbiqin satışından əldə olunan gəlirin bir hissəsini tələb edib.

# Demet Akalından maraqlı paylaşım: "Zəhməti boşa getdi"



***Demet Akalının Səhiyyə naziri Fahrettin Koca ilə bağlı paylaşımı saysız-hesabsız bəyənmə qazanıb. Fahrettin Kocanın fotosunu paylaşan müğənni "Bu adama acıyıram. Zəhməti boşa getdi.***

Bizim də ümidlərimiz..." deyə şərh yazıb. Akalın küçəyə çıxma qadağasından sonra minlərlə insanın market və çörək zavodlarına axışmasından kədərləndiyini bildirmişdi.

# "Beşiktaş" bu ulduz futbolçulara qapını göstərir




"Beşiktaş"ın göndərəcəyi futbolçuların adlarına aydınlıq gəlib. Nüfuzlu "Milliyət" nəşrinin yazdığına görə, İstanbul klubu Jermeyn Lens, Enzo Roko və Duqlasla qarşılıqlı razılaşma əsasında yollarını ayırmaq niyyətindədir. "Qara qartallar" Duqlas və Enzo Rokonu azad agent kimi buraxmaq, Jermeyn Lensi isə uyğun bir qiymətə satmağı planlaşdırır.

"Beşiktaş"la 2022-ci ilədək müqaviləsi olan 32 yaşlı Jermeyn Lenslə "Feyenoord"un yaxından maraqlandığı bildirir. Xəbərdə o da qeyd olunub ki, klub komandada icarə əsasında çıxış edən Loris Karius, Abdulay Diabi, Kevin-Prins Boatenq və Mohamed El -Nennini də göndərmək istəyir.

"Santyaqo Bernabeu" üçün 570 milyon avro

Koronavirus pandemiyasının İspaniyada geniş yayılmasına və yaratdığı maliyyə çətinliyinə baxmayaraq, "Real" "Santyaqo Bernabeu"da yenidənqurma işlərini davam etdirəcək. Qol.az "Daily Mail"ə istinadən xəbər verir ki, Madrid klubu bunun üçün paytaxt bələdiyyəsindən rəsmi icazə alıb.

Klubun yenidənqurma işlərinə 570 milyon avro ayırdığı bildirilir. Yenidənqurmadan sonra stadionda 360 dərəcə dönən videoekran olacağı və arenaya açılıb-bağlana bilən dam örtüyü quraşdırılacağı da qeyd olunub. Azarkeş tutumu isə 80 min 242 olacaq. Stadionun 2022-ci ilin oktyabr ayında tam hazır olması gözlənilir.

## Başsağlığı

Yeni Azərbaycan Partiyası İcra Katibliyinin kollektivi partiyanın Şirvan şəhər təşkilatının sədri Abıyev Samid Hüseyn oğlunun vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**